

## Prezident Azərbaycan xalqını təbrik edib

*Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb.* "Unikal" xəbər verir ki, təbrikdə deyilir: "Hörmətli həmvətənlər!

Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Səh.2


# UNİKAL

№24 (2109) 8 iyul 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru




## Nazim İbrahimov və qardaşlarının bitmək bilməyən qalmaqalları...

### Onların çoxillik qanunsuzluqları ətrafında hay-küy hələ də səngimək bilmir

*Paytaxtda intihara cəhdin qarşısı alınıb. "Unikal" xəbər verib ki, bu barədə görüntülər sosial şəbəkədə yayılıb. Görüntülərdə bir xanımın özünü tikilməkdə olan binanın üstündən aşağı atmağa çalışdığı, polisin isə onu xilas etdiyi görünüb. Bundan əlavə, məlum olub ki, bir qrup vətəndaş, o cümlədən intihar etmək istəyən xanım Diaspora iş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun qardaşı, ATV-nin keçmiş rəhbəri Tağı İbrahimovun bir mənzili 2-3 şəxsə satmasına etiraz ediblər. Onu da deyək ki, bu, T.İbrahimova qarşı bu ilk belə ittiham deyil: belə ki, təxminən üç il öncə...*

Səh.8

Səh.9



## Sülh razılaşması prosesində Ermənistan üçün son şans

## "AMEA inkişaf etməlidir, amma həm də qorunmalıdır"



*Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, AMEA İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev "Unikal"a müsahibə verib. Hörmətli Rasim müəllim, AMEA Rəyasət Heyətinin xüsusi iclasında çıxışınız zamanı bildirdiniz ki, Elmlər Akademiyası olaraq müəyyən qədər nüfuzumuzu itirmişik. Necə düşünürsünüz, AMEA-nın nüfuzunu itirməsi nə ilə bağlıdır...*

Səh.4

## Yaşar Həsənovdan 100 milyon manatlıq şok miras...



*"Azəristiliktəchizat" ASC 2021-ci ili 10,372 milyon manat zərərlə başa vurub. Halbuki, qurum 2020-ci ildən 1,033 milyon manat mənfəətlə çıxmışdı. Bu barədə qurumun maliyyə hesabatından məlum olub. Sənədə əsasən, ötən il səhmdar cəmiyyətin yığılmış zərəri 11,7% artaraq 98,918 milyon manata çatıb.*

Səh.6

## Mərdan Camalov yola salınır



*Son günlər Azərbaycanda aparılan kadr islahatları çərçivəsində müəyyən vəzifəli şəxslərin, o cümlədən, bir çox rayon və şəhər İcra Hakimiyyəti başçısının öz postu ilə vidalaşacağı barədə duyumlar, iddialar artıb. Belə duyumların, iddiaların həqiqəti nə qədər əks etdirdiyi bəlli deyil...*

Səh.7

# Röya bir mahnıya 3500 dollar ödəyib



***Xalq artisti Röya Ayxanın "Tövbə" mahnısına görə MESAM-a (Türkiye Musiki Eseri Sahipleri Meslek Birliği) 3500 dollar ödədiyi iddia olunub.***

Bu haqda aparıcı-prodüser Tarix Əliyev "Tarixin bir günü" proqramında deyib.

"Bizim sənət adamları türk mahnıları oxuyanda onları məhkəməyə verirlər. Röya da "Tövbə"ni oxumaq və yutubda yerləşdirmək üçün 3500 dollar pul ödəyib. Zöhrə Abdullayevə oxuyanda oxuyanda icazəsi var idi. Hər mahnıya görə Türkiyədən pul tələb edirlər, əks halda ifan yutubdan silinir" deyə, o, bildirib.

Röya özü də məlumatı təsdiqləyib. O, MESAM-a 3500 dollar ödədiyini bildirib. Qeyd edək ki, "Tövbə" mahnısını mərhum Əməkdar artist Zöhrə Abdullayeva ifa edib. Daha sonra Xalq artisti Röya Ayxan və Əməkdar artist Firuzə İbadova oxuyub.

# Firəngiz Mütəllimova ailəsi ilə Şuşada



***Xalq artisti Firəngiz Mütəllimova yenidən Şuşaya yollanıb.***

Aktrisa bu dəfə ailəsi ilə birlikdə ata ocağına səfər edib. F.Mütəllimova Şuşanı qarış-qarış gəzərək fotolar çəkdirib. O, paylaşımlarından birinə "Canım qardaşım, bacımla müqəddəs Şuşada. Vətəni sözlə, göstərişlə yox, ürəklə sevməliyik... Allah şəhidlərimizə rəhmət, qazilərimizə şəfa versin... Bu müqəddəs torpağa qədəm basarkən nə hisslər yaşadığımızı bir Allah bilir. Allah, sənə min şükürlər. Şuşa, sən azadsan" sözlərini yazıb.

Aktrisa əlavə edib ki, qohumları ilə birlikdə Şuşadakı hazırda dağınıq halda olan evlərində olub: "Allah bu dünyada heç kimə həsrət yaşatmasın. Hər qaranlıq gecənin bir işıqlı sabahı var. Sənin kürəsinin, dünyanın ən füsunkar şəhərisən. Şuşa, sən ən ərkəsöyün, nazlı, dəyərli, qiyməti olmayan, başı ağ duvaqlı bir təzə gəlinsən sanki. Hər yerdə təmir-tikinti işləri sürətlə gedir. Hər yer gül-çiçəyə qərq olur. Həyəcanla oğlan evini, onu həqiqi sevən sakinlərini gözləyir. Sənin uğrunda qan tökən şəhidlərimizə Allah rəhmət eləsin, qazilərimizə can sağlığı versin. Şanlı tariximiz bizə canlı yaşadan Ali Baş Komandanımıza, ordumuza, sərhədçilərimizə, əsgərlərimizə, polislərimizə eşq olsun".



# Müğənnini aldadıb yarım milyonluq torpağını əlindən alıblar

***"İllərdir fəaliyyət göstərirsiniz... İstəmirəm sizdən istifadə etsinlər. Verilişlər dəvət edib, istifadə edirlər. Az qazan, alnıaçıq ol. Kimlərinsə qarşısında başıaşağı olma".***

"Unikal" axsam.az-a istinadən xəbər verir ki, bu sözləri aparıcı Tarix Əliyev (Tolik) "Tarixin bir günü" proqramında Əməkdar artist Firuzə İbadovanın ünvanına deyib. O bildirib ki, verilişlər müğənnini çağırıb, onu "yazıq" kimi göstərib, reytinq qazanırlar:

"Bir sənətkarı yazıq kimi göstərmək və qınağa çevirmək olar? O bic olsaydı 20 sot torpağını əlindən almaq olardı? Yarım milyon qiyməti olan torpağı əlindən alındı. Başını aldadıb qol çəkdirdilər. İndikilərin əlindən bir mikrofon almaq olmur".

Qeyd edək ki, "Günün sədası" proqramında F.İbadovanın şəraitsiz evdə yaşadığı nümayiş edilmişdi. Bu isə tənqid olunmuşdu.

# "Qızımı oxumağa qoymaram" - Eldəniz Məmmədov

***"Neçə dəfə sual veriblər, cavabımız isə qalmaqala səbəb olub. Deyirlər, qız övladını oxumağa qoyursunuz? Bir çox sənət dostum, eləcə də mən deyirəm, yox".***



Bu sözləri müğənni Eldəniz Məmmədov "Həmin Zaur" proqramında deyib. O bildirib ki, qız övladını oxumağa icazə verməz: "Çox çətin sənətdir. Həm ailə sahibi olasan, həm övlad böyüdəsən, həm studiyaya gedib mahnı oxuyasan, həm evdə yoldaşa yemək bişirəsən. Çətindir... Xanım ifaçıların işi çətindir. Mən buna görə "yox" deyirəm. Görürəm xanımlar necə əziyyət çəkirlər".

# "Kuruluş Osman" Şuşada çəkiləcək

***Türkiyənin ATV kanalında yayımlanan "Kuruluş Osman" serialının 3-cü sezonunun bir neçə bölümünün Şuşada çəkiləcəyi iddia olunur.***

Burak Özçivitin Bakıya gəlişinin digər səbəblərindən biri də bu imiş. Serialın ötən bölümlərindən birində Osman bəyin başına toplaşan əsgərlərə "Şərqdəki Şuşa da bizimdir" deməsinin də, gələcəkdəki hadisələrin burada cərəyan etməsinə eyham olduğu bildirilir.

Qeyd edək ki, "Kuruluş Osman"da həmyerlimiz, Avropa çempionu Zabit Səmədov da rol alır. Daha əvvəl isə Səmədovun oynadığı Gence Bəy Şuşadan müharibədən gəldiyini, düşmənləri iti qovan kimi qovduqlarını demişdi. Onu da bildirək ki, serial yeni televiziya mövsümündən AzTV-də də yayımlanacaq.



## MM-in komitə sədrləri Şuşa Xəstəxanasında

***Azərbaycanın mədəniyyət paytaxtı Şuşada Milli Məclisin Səhiyyə və Əmək və sosial siyasət komitələrinin "Ölkədə icbari tibbi sığortanın tətbiqi ilə bağlı görülən işlər, hazırkı vəziyyət və gələcək planlar" mövzusuna həsr edilmiş birgə dinləməsi keçirilib.***

Dinləmə çərçivəsində Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyəti sədrinin müavini Nigar Bayramova və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi (TƏBİB) İdarə Heyəti sədrinin vəzifələrini icra edən Vüqar Qurbanov Şuşa Modul Tipli Xəstəxanasına gedərək, tibb heyəti və xəstəxananın iş şəraiti ilə tanış olublar.

"Unikal" xəbər verir ki, görüşdə Xəstəxana nümayəndəsi məlumat verdi ki, Şuşa Modul Tipli Xəstəxanasında təcili tibbi yardım, poliklinika, laboratoriya, funksional diaqnostika, anesteziologiya-reanimasiya şöbələri mövcuddur. Tibb personalının tərkibinə travmatoloq, ümumi cərrah, kardioloq, revmatoloq, anestezioloq-reanimatoloq, funksional diaqnostika həkimi, orta və kiçik tibb işçiləri, eləcə də qeyri-tibb işçiləri daxildir. Müasir palatalarla təmin olunan Şuşa Modul Tipli Xəstəxanasında mərkəzləşdirilmiş oksigen generator sistemi ilə təchiz olunan xəstəxana həm ambulator, həm də stasionar tibbi xidmət göstərir. Vətəndaşlar burada İcbari Tibbi Sığortanın Xidmətlər Zərfi çərçivəsində tibb xidmətlərdən yararlana bilirlər. Rəsmi qonaqlar həmçinin yeni tikilən Şuşa Xəstəxanasının ərazinə də baş çəkiblər.

***Hüseyn***

# Nazim İbrahimov və qardaşlarının bitmək bilməyən qalmaqalları...

## Onların çoxillik qanunsuzluqları ətrafında hay-küy hələ də səngimək bilmir

***Paytaxtda intihara cəhdin qarşısı alınıb. "Unikal" xəbər verib ki, bu barədə görüntülər sosial şəbəkədə yayılıb. Görüntülərdə bir xanımın özünü tikilməkdə olan binanın üstündən aşağı atmağa çalışdığı, polisin isə onu xilas etdiyi görünüb.***

Bundan əlavə, məlum olub ki, bir qrup vətəndaş, o cümlədən intihar etmək istəyən xanım Diasporla iş üzrə Dövlət Komitəsinin sabiq sədri Nazim İbrahimovun qardaşı, ATV-nin keçmiş rəhbəri Tağı İbrahimovun bir mənzili 2-3 şəxsə satmasına etiraz ediblər.

Onu da deyək ki, bu, T.İbrahimova qarşı bu ilk belə ittiham deyil: belə ki, təxminən üç il öncə 42 vətəndaş KİV vasitəsilə ölkə rəhbərliyinə müraciət ünvanlayaraq, Tağı İbrahimovun onların 1 milyondan çox pulunu mənimsədiyini bildirmişdi. Yeni Yasamalda tikintisi illərdir dayanmış yaşayış kompleksində mənzil almaq üçün pul ödəmiş həmin şəxslərin dediyinə görə, T.İbrahimovun tikməli olduğu binada 2008-ci ildən bəri mənzillər satılır, ancaq tikinti getmir. 2013-cü ildə bu kompleksdə işlər dayanıb. "Tikintini aparan "Qlobal-SF" MMC-nin satış müdirləri mənzil alanlara həmişə deyiblər ki, bu binanı Tağı İbrahimov inşa edir, bir ilə təhvil veriləcək. Ancaq bu vədlərə əməl olunmadı. Əksinə Tağı İbrahimov məsuliyyətdən özünü yayındırmaq üçün təsisçisi olduğu "İbra Holding" MMC-ni və satış müdiri, öz bacısı oğlu Əmrah İbrahimovu "Qlobal-SF" MMC-nin təsisçiliyindən çıxararaq fırıldaq işlətdi, heç nəyi olmayan əmisi oğlu Həmid İbrahimovu "Qlobal-SF" MMC-nin 100 faiz paya sahibi və tək təsisçisi etməklə mənzil alanların haqlı tələbini qulaqardına vurdu" - şikayətçilər demişdilər.

Ümumiyyətlə isə İbrahimov qardaşlarının adı əslində uzun müddətdir qalmaqallı xəbərlərdə keçir. Hətta bir az da dəqiqləşdirsək, biz keçmiş "diaspor şefi" və yaxınlarının adlarına yalnız qalmaqallı xəbərlərdə rast gəlirik. İstər N.İbrahimovun özü olsun, istərsə də qardaşları - Hacı İbrahim Nehrəmli kimi tanınan İbrahim İbrahimov, Tağı İbrahimov, Sahib İbrahimov barədə az qala həftə səkkiz, mən doqquz hansısa şikayət, ittiham eşidirik. Hətta bu cür şikayətlər, ittihamlar qardaşlardan birinin - S.İbrahimovun yolunun həbsxana ilə kəsişməsinə gətirib çıxarıb. Belə ki, Bakı şəhəri, Xətai Rayon Məhkəməsinin "STS" şirkəti, "Sahil-D Kompani" MMC-nin təsisçisi, dələduzluq faktlarına görə əvvəllər məhkum edilmiş İbrahimov Sahib Hüseyn oğlunun yenidən oxşar xarakterli cinayət əməlləri törətməsinə dair xüsusi qərardadı əsasında 2021-ci ilin yanvar ayından başlayaraq Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırma aparılmaqla Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb. Və...

Və iş üzrə toplanmış kifayət qədər sübutlar əsasında, 17 aprel 2021-ci il tarixdə Sahib İbrahimova Cinayət Məcəlləsinin 178.3.2 (külli miqdarda ziyan vurmaqla dələduzluq), 308.2 (ağır nəticələrə səbəb olmaqla vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) və 313-cü (vəzifə saxtakarlığı) maddələri ilə ittiham elan edilib, sonuncu istintaq orqanının çağırışlarına gəlmədiyindən və müxtəlif üsullarla ibtidai istintaqın normal gedişinə mane olduğuna görə məhkəmənin qərarı ilə barəsində həbs qətimkan tədbiri seçilib.

Lakin çifayda...

Hətta qalmaqalların həbsə qədər uzanması da heç nəyi dəyişməyib: İbrahimovlarla bağlı səs-küylü, skandal xarakterli informasiyaların, sensasiyalı iddiaların ardarası kəsilmək bilmir. Düzdür, mütəmadi olaraq mediada belə xəbərlər dolaşır ki, İbrahimov qardaşları arasında münasibətlər olduqca sərindir, onlar bir-birləri ilə küsülüdürlər, danışmırlar. Lakin bir çoxları əmindir ki, bu cür informasiyalarda şişirtmə yetərincədir; hətta bəziləri əmindir ki, oxşar məlumatlar məqsədli tirajlanır. Niyyət də ondan ibarətdir ki, qardaşlardan biri "başağrısı" yaşadıqda bu digərlərinə də problem yaratmasın. Xüsusi toplanan vardövlət və qurulan "biznes imperiyasını" qorumaq baxımından!

Bir çoxlarının fikrincə, qardaşlar arasındakı münasibətlərin necəliyindən asılı olmayaraq onlardan təsir və maliyyə imkanları daha geniş olanı, yəni N.İbrahimov "himayədarlıq" missiyasını davam etdirməkdədir. Düzdür, onun qardaşı Sahib İbrahimovun cinayət işi üzrə məhkəmə prosesinin sonunda 6 il 9 ay həbs cəzası verilib. Bununla belə, bəziləri cəzanı kifayət qədər yüngül hesab edirlər. Çünki ortada kifayət qədər ağır maddələr var idi...

Bundan başqa, digər qardaşlar barədə də yetərincə ciddi ittihamlar, şikayətlər olsa da, onlar hüquqi məsuliyyətdən kənarda qalıblar. Elə Diasporla İş üzrə Dövlət Komitəsinin sabiq sədrinin özü kimi! Onun fəaliyyəti həmişə tənqid mövzusu olub. Yalnız ona görə yox ki, N.İbrahimov diaspora işini düzgün qura bilməyib, həm də ona görə ki, adıçəkilən Komitədə korrupsiya dərin kök salıb, sabiq sədr isə daha çox ölkə daxilində və xaricində şəxsi biznesini gücləndirməyə üstünlük verib - əlbəttə, rəhbəri olduğu qurumda dərin kök salan korrupsiyanın yaratdığı imkanlarla!



Təsadüfi deyil ki, Nazim İbrahimov vəzifəsindən kənarlaşdırıldıqdan sonra Prezident Administrasiyasının ovaxtkı rəhbəri Ramiz Mehdiyev bəyan etmişdi ki, Diasporla İş üzrə Dövlət Komitəsinin işində narazılıqlar var idi: "Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib" - deyən Ramiz Mehdiyev qeyd eləmişdi ki, Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla heç bir iş görülməyib: "Düzdür, Komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb".

Yuxarıdakı çıxışdan sonra gözlənilirdi ki, N.İbrahimovun yol verdiyi korrupsiya halları ilə bağlı ciddi ölçü götürüləcək. Ancaq bu, baş vermədi. Hətta adam öldürməkdə təqsirləndirilib həbs olunan Rövşən Ələkbərovun işində də eks komitə sədrinin adı ön plana çıxmış, onun da cinayət məsuliyyətinə cəlb olunma ehtimalı gündəmə gəlmişdi. Lakin həmin ehtimal da doğrulmadı. Niyəsi isə qaranlıq qalır. Əvəzində həm keçmiş "diaspora şefi"nin, həm də yaxınlarının adları qalmaqallı xəbərlərdə hallanmağa davam edir...

***Toğrul Əliyev***

# Sülh razılaşması prosesində Ermənistan üçün son şans

## Bakı-İrəvan gündəliyindəki gedişat nə vəd edir: Ermənistan üçün daha təhlükəli proseslər başlaya bilər

***Cənubi Qafqaz regionunun Azərbaycan-Ermənistan zonasında hər nə qədər müharibə olacağı ehtimalları səslənsə də, indiki şərait üçün bunun reallıq səviyyəsi aşağıdır. Ən azından ona görə ki, sülh danışıqları davam edir və həlledici irəliləyişlər ictimaiyyətə açıqlanmasa da, pərdə arxasındakı dialoq iştirakçıları bundan xəbərdardır. Hərçənd ki, Azərbaycan Ermənistana qarşı hərbi əməliyyatları da istisna etmir və bunun üçün resurslarının mövcudluğunu göstərir.***

Bu barədə fikirlərini "Unikal"la bölüşən şərhçi Aqşin Kərimov bildirib ki, Bakının sərgilədiyi bu cür hərbi-siyasi davranış Azərbaycanın danışıqlarda mövqelərini bərkidir və Ermənistan növbəti kapitulyant güzəştlərə getməyə məcbur qalır. Onun fikrincə, Ermənistanın istədiyi, əldə edilən razılıqlarla praktiki icra mərhələsində olan aralıq müddətində öhdəliklərdən yayınmaqdan ötrü manipulyativ "arqumentlər" toplamaqdır: "Ancaq indi münaqişə yox, postmüharibə dövrüdür və Bakının hər keçən gün Ermənistana qarşı əli yeni şəraitə uyğun olaraq güclənir. Buna görə də, Ermənistanın Bakının şərtlərini yerinə yetirməkdən başqa çarəsi mövcud deyil, dövriyyədə olan bir çox informasiya və ya verilən bir çox bəyanat sadəcə həmin çarəsizliyi ört-basdır etməkdən ibarətdir.

Vəziyyətdəki qara rəngləri şəffaflaşdırmaq üçün Azərbaycanla Ermənistan arasındakı 44 günlük müharibə ilə analogiya aparaq. Müharibədən öncə Ermənistan hər vəchlə danışıqları uzatmaq, status-kvonu qoruyub-saxlamaq və yeni ərazilər üçün yeni müharibəyə hazırlaşırdı. Azərbaycan buna adekvat güc tətbiqi ilə cavab vermək zərurəti ilə üzləşdiyindən müharibə başladı və Bakı İrəvan üzərində həlledici qələbə qazandı. Ermənistanda indi də xam xəyallar mövcuddur, amma İrəvan rəsmi şəkildə Bakı qarşısında geri çəkilməkdə davam etdiyindən biz rəsmi mövqedəki duruşa diqqət etməliyik. Ermənistan revanşizmə nəfəs vermək üçün çabalasa da, Azərbaycanın istər Naxçıvan, istər Laçın, istər Kəlbəcər istiqamətindəki hərbi mövqelərini möhkəmlətməsi, yəni sərhəddən Ermənistana baxışı İrəvanın cəhdlərini boşa çıxardır".

Ekspert hesab edir ki, hərbi-siyasi, diplomatik danışıqların mənzərəsini sərhəddəki cari vəziyyət tamamlayır, əgər Ermənistan situasiyanı özünün revanşist meyllərinin xeyrinə dəyişməyə cəhd göstərsə, Azərbaycan hərbi tədbirlər planını tətbiq etmək hüququndan yararlanacaq: "Azərbaycanın danışıqlar masası üzərinə qoyduğu və ehtiyat planlarındakı "silah gücü" Ermənistanı Bakının mövqeyinə yaxınlaşdırır. Hər nə qədər Nikol Paşinyan üstünə əzmkarlıq və qətiyyətlilik pərdəsi çəkməyə çalışsa da, bu pərdəni Azərbaycan ordusunun atdığı bir neçə güllə asanlıqla qaldırır və Paşinyan özünü ifşa edən mövqeləri dilə gətirir.

Hətta Ermənistanın Zəngəzur dəhlizi (dəhliz rejimində) mövzusunda yeni razılıqlarının işartısı da var. Ən son məlumatlara əsasən, Ermənistan 5 marşrut üzrə dəhlizin reallaşması imkanlarını nəzərdən keçirir. Nə Azərbaycan, nə də Ermənistan erməni mediasının yaydığı bu iddia ilə bağlı cavab verməyib, lakin nəzərə alaq ki, bu cür məlumatlar Ermənistan mətbuatına elə-belə yerə sızdırılmır. Ən azından Nikol Paşinyan administrasiyasında bu fikir hakim kəsilib ki, əvvəl-axır Zəngəzur dəhlizi Bakının şərtləri altında açılmalıdır - ya xoşluqla, ya da hərbi güc tətbiqi ilə. Sülh gündəliyinin beynəlxalq elementlərlə formalaşdırılmasına gəlincə, burada da hər hansı neqativ tendensiyanın mövcudluğundan bəhs edə bilmərik.

Açıq qalan məsələlərin həllində Türkiyənin, Rusiyanın səyləri birləşir və bir-biri ilə dabandabana ziddiyyət təşkil edən forma vəziyyətinə gəlmir.

Qərbə gəlincə, o, maksimum dərəcədə Rusiyanı oyundan kənarlaşdırmaq istəyir və bunu Azərbaycan-Türkiyə strateji müttəfiqlik maraqları ilə uyğunlaşdırmaq istəyir.

Elə Kreml də Qərbi strateji tatamidən uzaqlaşdırmaqdan ötrü Bakı-Ankara ikilisinin mövqeyindən istifadə etməyə çalışır".

A.Kərimov onu da qeyd edib ki, son zamanlar Azərbaycan ABŞ-ın sülh müqaviləsinin formalaşdırılması prosesindəki töhfəverici iştirakına çağırışlar edir, ancaq bunu Rusiyaya verilən kəskin mesaj kimi qəbul etmək də düzgün deyil: "Sadəcə, Bakının strateji yanaşmasının məntiqi bundan ibarətdir ki, region beynəlxalq güclərin poliqonu statusuna yiyələnməsin, hərçənd ki, Rusiya-Ukrayna müharibəsi fonunda postsovet ölkələrinin hamısı üçün hər hansı formada təhdidlər yaranıb .Bu təhdidlər Azərbaycanı qorxutmasa da, Bakı ehtiyatı əldən vermir, konfrontasiyaya getmək siyasətindən uzaqdır və situasiyanı öz xeyrinə çevirə bilmək üçün çevik imkanlara sahibdir. Ona görə də, Cənubi Qafqazda ən çox düşünən ölkə Ermənistan olmalıdır. Çünki Azərbaycanın istər beynəlxalq münasibətlər sistemindəki yeri, istər hərbi gücü, istərsə Türkiyə ilə strateji müttəfiqliyi, istər Qərblə əlaqələri, istərsə də, Rusiya ilə münasibətləri dünya üçün yaranan təhdidlər fonunda Ermənistanın varlığını sual altına alar. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərinə gəlincə, onların 5 ili tamam olunca, ərazilərimizdən çıxması real görünmür".

Müsahibimiz onu da əlavə edib ki, Azərbaycanın Ermənistan üzərində yaratdığı total təzyiq dalğası nəticəsində sülhməramlılara da ehtiyac qalmayacağı dəqiqdir, ona görə İrəvan Rusiya kontingentinin Qarabağa dislokasiya edilən bölmələrinə ümid bəsləməkdən əlini üzməlidir: "Fikrimcə, gözləntilər bunlardır:

- Azərbaycan-Ermənistan gündəliyində hazırda danışıqlar ön plandadır və qarşıda İrəvan yeni güzəştlərə gedəcək.
- Razılıqların icrasında axsamalar olsa, Bakı hibrid müharibəni qısamüddətli hərbi əməliyyatlarla gücləndirəcək.
- Qərb Rusiyanı Cənubi Qafqazdan kənara atmağa çalışsa da, bunun praktiki gerçəklik dozası çox aşağı olacaq".

Politoloq Məhəmməd Əsədullazadə isə deyir ki, Ukraynaya verilən silah partiyaları Rusiyanın döyüş meydanında ciddi itkilər verməsi ilə nəticələnəcək. Siyasi analitikin fikrincə, bu vəziyyət Ukrayna ordusuna yüksək ruh və psixoloji üstünlük qazandıracaq. "Müharibənin davam etməsi üçün mütləq şəkildə ordunun döyüş qabiliyyətinin qorunması və psixoloji vəziyyəti üstün olmalıdır. Artıq Herson istiqamətində Ukrayna ordusu əks-hücuma keçərək üstünlüyü ələ alıb. Donbasda Rusiya mümkün irəliləyişə nail olsa da bu istiqamətdə ukraynalıların növbəti aydan əks-hücumlar etməsi gözlənilir".

Politoloqun fikrincə, Ukraynanın Rusiyaya ərazi güzəştinə getməsi və indiki status-kvo ilə danışıqlar masasına oturması Moskvanın beynəlxalq təsir qüvvəsinə çevrilməsinə gətirib çıxara bilər. Müsahibimiz onu da bildirib ki, müharibənin davam etməsi və hər hansı bir danışıqların baş tutması yaxın perspektivdə mümkün görünmür.



"Avqust ayında Ukraynaya verilən silahlar və yeni döyüş birliklərinin yaradılması nəticəsində Ukrayna ordusunun əks-hücumları istisna edilmir. Rusiya ordusuna gəldikdə isə əvvəlki aylara nisbətən öz döyüş qabiliyyətini bərpa etsə də, məğlubiyyəti qaçılmaz olacaq. Qərbin mövqeyində dəyişikliklər baş verməsə Rusiya zəifləyəcək. Ötən əsrdə beynəlxalq nizamın formalaşması üçün iki dünya müharibəsi baş verdi. Yeni münasibətlər sisteminin formalaşması və dünya siyasi nizamı dəyişir. ABŞ başda olmaqla, Qərb koalisiyası Rusiyanın yaratmaq istədiyi dünya nizamına imkan tanımayacaq. Rusiyanın strateji cəhətdən Ukraynada məğlubiyyəti Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinə və Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanmasına şərait yaradacaq".

M.Əsədullazadə qeyd etdi ki, Rusiyanın Azərbaycanla son günlərdə siyasi əlaqələrdə müsbət dinamikanın olması heç də Kremlin ölkəmizlə normal münasibətlər sistemi qurmaq planı ilə bağlı deyil. Bu regionda Türkiyənin zəiflədilməsi və Cənubi Qafqaz və Mərkəzi Asiyaya açılım siyasətinin qarşısını almaq məqsədi daşıyır.

***Z.Məmmədli***

# Prezident Azərbaycan xalqını təbrik edib



***Prezident İlham Əliyev Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik ünvanlayıb.***

”Unikal” xəbər verir ki, təbrikdə deyilir:

”Hörmətli həmvətənlər!

Sizi və Azərbaycandan kənarda yaşayan bütün soydaşlarımızı İslam dünyasının birlik, bərabərlik və qardaşlıq rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hamınıza ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı İslam dininin bəşəriyyətə mənəvi-əxlaqi qurtuluş yolu kimi göndərilməsi ilə əlamətdardır və müsəlmanların Allah sevgisini, haqq-ədalət naminə hər cür fədakarlığa hazır olduqlarını təcəssüm etdirir.

Azərbaycan xalqı əsrlər boyu tarixi köklərinə və adət-ənənələrinə bağlılığı ilə seçilmiş, ən mürəkkəb dövrlərdə belə, öz milli-mədəni dəyərlərini qoruyub saxlamışdır. Müsəlman aləmi ilə mənəvi həmrəyliyimizi nümayiş etdirən dini bayramlar, o cümlədən Qurban mərasimləri hər il ölkəmizdə böyük təntənə və ruh yüksəkliyi ilə qeyd olunur, Allahın adına qurbanlar kəsilir, dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir.

Azərbaycanın müstəqilliyi uğrunda və əzəli torpaqlarımızın işğaldan azad olunmasında canlarını fəda edən qəhrəman şəhidlərimizin ölməz xatirəsini bir daha dərin ehtiramla yad edir, onlara Uca Yaradandan rəhmət, yaxınlarına səbir diləyirəm.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, etdiyiniz dua və niyyətlər Tanrı dərgahında qəbul olunacaq, bu mübarək bayram da xalqımıza xas xeyirxahlığın, şəfqət və mərhəmətin təntənəsinə çevrilərək, cəmiyyətimizdə milli-mənəvi həmrəylik ovqatını daha da gücləndirəcəkdir.

Qoy müqəddəs Qurban bayramı ailələrinizə firavanlıq, süfrələrinizə xeyir-bərəkət gətirsin. Bayramınız mübarək olsun!”.

# 30 bağça müdiri işdən çıxarıldı



***Təhsil Nazirliyi tərəfindən məktəbəqədər təhsil müəssisələrində monitorinqlər davam etdirilir.***

Nazirlikdən ”Unikal”a verilən xəbərə görə, aparılmış monitorinqlər nəticəsində 30 nəfər çalışmanın yaş həddinə çatmış müəssisə rəhbəri tutduğu vəzifədən azad edilib.

Belə ki, həmin müəssisələrdə ərzaq təminatı, ərzaq və mətbəxin saxlanılma vəziyyəti, tədris vəsaitlərinin təminatı, uşaqların davamiyyətinin təşkili və digər sahələrdə ciddi nöqsanlar aşkar olunub.


Baş redaktor:
Zaur Əhməd

Turanbank” ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5ᴺ
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və “Futbol+” servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700


# 40 nəfər koronavirusa yoluxdu, 1 nəfər öldü

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 40 yeni yoluxma faktı qeydə alınıb, 49 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Unikal”a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən 1 nəfəri vəfat edib.

İndiyədək ümumilikdə 793 546 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 550 nəfər müalicə olunaraq sağalıb, 9 719 nəfər vəfat edib, aktiv xəstə sayı 277 nəfərdir.

Ölkədə son sutka ərzində 2 348, hazırkı dövrədək isə 6 980 033 test aparılıb.

# YAP və Çin Kommunist Partiyası arasında görüş keçirilib

***Bu gün Çin Kommunist Partiyasının təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini Çyan Xunşan arasında videoformatda görüş keçirilib.***




YAP mətbuat xidmətindən “Unikal”a verilən xəbərə görə, görüşdə partiyalar və dövlətlər arasında mövcud olan münasibətlərin yüksək inkişaf dinamikasından məmnunluq ifadə edilib, ikitərəfli və beynəlxalq platformada əməkdaşlığın qarşılıqlı maraq doğuran bütün sahələrdə inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Tahir Budaqov bildirib ki, Azərbaycan Respublikası Çin Xalq Respublikası ilə qarşılıqlı əlaqələrə böyük önəm verir, ölkələrimiz arasında bu gün siyasi, iqtisadi, humanitar və digər sahələrdə əlaqələrimiz uğurla davam edir. Əlaqələrin inkişafında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Çin Xalq Respublikasının Sədri Si Cinpinin dostluq münasibətlərinin əhəmiyyətini vurğulayan YAP Sədrinin müavini ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək Yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın güclənməsinə zəmin yaratdığını qeyd edib.

O, həmçinin Azərbaycanın Çin Xalq Respublikasının irəli sürdüyü “Bir kəmər, bir yol” layihəsini dəstəkləyən ilk ölkələrdən biri olduğunu diqqətə çatdırıb. Zəngəzur dəhlizi isə Azərbaycanın tranzit ölkə kimi potensialını daha da gücləndirəcək, bu dəhliz vasitəsilə Şərq-Qərb istiqamətində beynəlxalq yükdaşımaların əhəmiyyətli dərəcədə artması regionda Azərbaycan və Çinin də fəal iştirakçısı olduğu yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək.

Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsi müdirinin müavini isə deyib ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. Vurğulanıb ki, Azərbaycan regionda Çinin əsas tərəfdaşlarından biridir. Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini dəstəkləyən Çin Xalq Respublikası Cənubi Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın təmin olunmasında maraqlıdır.

Görüşdə, həmçinin Çin Kommunist Partiyası və Yeni Azərbaycan Partiyası arasında əlaqələrin həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində inkişaf etdiyi, partiya nümayəndə heyətlərinin səmərəli qarşılıqlı səfərlərinin və görüşlərinin həyata keçirildiyi, bu əlaqələrin möhkəmləndirilməsinin vacibliyi qeyd edilib, partiyaların gəncləri arasında əlaqələrin güclənməsinin zəruriliyi və qarşılıqlı səmərəli əməkdaşlığın inkişaf perspektivləri geniş müzakirə olunub.

Qeyd edək ki, Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyasının nümayəndələri arasında iki mövzuda videokonfrans da keçirilib. “Texnologiya və innovasiya” mövzusunda keçirilən videokonfransda Çin Kommunist Partiyasının Şanxay şəhər komitəsinin nümayəndəsi, professor Dun Yuxun Şanxayın “ağıllı şəhər” modeli haqqında geniş məruzə edib, bu istiqamətdə Çinin təcrübəsini bölüşüb.

Növbəti konfrans isə “Bir kəmər, bir yol”un tikintisi və inkişaf perspektivləri” mövzusunda keçirilib. Çin Kommunist Partiyasının nümayəndəsi, ekspert Qonq Paypinq mövzu ilə bağlı geniş təqdimatla çıxış edib. YAP Təftiş Komissiyasının sədri, Milli Məclisin deputatı Sevinc Hüseynova iki ölkə arasında münasibətlərin inkişafından, o cümlədən Azərbaycanın “Bir kəmər, bir yol” layihəsinə verdiyi önəmindən bəhs edib.

# Əli Əsədov Artur Rasizadənin qərarına dəyişiklik etdi

***Nazirlər Kabineti 6 fevral 2017-ci il tarixli 31 qərarı ilə təsdiq edilmiş “Təhlükə potensiallı təbiət və texnogen xarakterli hadisələrin baş vermə ehtimalının yüksək olduğu zonalarda mühafizə tədbirlərinin növləri və onların tətbiqi halları”nda dəyişiklik edib.***

”Unikal” xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov qərar imzalayıb. Qərara əsasən, əhalinin sağlamlığını, ətraf mühiti və əmlakı dənizdə və quruda neft-qaz əməliyyatları zamanı yarana biləcək qəzalardan mühafizə etmək üçün bu obyektlər ətrafında xüsusi mühafizə zonaları müəyyən edilmişdir. Neftqazçıxarma sənayesi obyektlərindən yaşayış binalarına, fərdi yaşayış evlərinə, yataqxanalara, ictimai və inzibati binalara, müvəqqəti salınmış qəsəbələrə, sənaye və kənd təsərrüfatı müəssisələrinə, elektrikötürücü xətlərinə və elektrik yarımstansiyalarına qədər minimum məsafələr (metrlə) aşağıdakı kimi müəyyən olunub:

Qeyd edək ki, 2017-ci ildə Baş nazir Artur Rasizadə olub.

# "Türkiyə ilə münasibətlər strateji müttəfiqlik xətti ilə inkişaf edir" - XİN

***Azərbaycanla Türkiyə arasında olan münasibətlərin dünya tarixində bir bənzəri yoxdur.***

”Unikal” xəbər verir ki, bunu Azərbaycan Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Xarici İşlər Nazirliyi ilə ADA Universitetinin birgə həyata keçirdiyi “Müharibədən Sonrakı Dövrdə Azərbaycanın Sülh və Yaradıcılıq Təşəbbüsləri” mövzusunda “Diplomatiya həftəsi” çərçivəsində ”Şuşa Bəyannaməsindən Sonra Türkiyə-Azərbaycan Müttəfiqlik Münasibətləri, Yeni Regional Reallıqlar və Qarabağın Yenidən Qurulması və İnkişafında Türkiyənin Rolu” haqqında Diplomatiya Həftəsi iştirakçıları qarşısında çıxışında deyib. O qeyd edib ki, Türkiyə-Azərbaycan münasibətləri strateji müttəfiqlik xətti ilə inkişaf edir. “Bu münasibətlərin gələcəkdə daha da yüksək zirvələrə çatdırılması istiqamətində səy göstərəcəyik və səyimizi əsirgəməyəcəyik. Türkiyə Azərbaycana bu günə qədər ən böyük siyasi dəstəyi göstərmiş qardaş dövlətdir. Türkiyənin, həmçinin, azad olunan ərazilərdə aparılan bərpa-quruculuq işlərində də rolu çox böyükdür”, - deyə L.Abdullayeva bildirib.

# Şəkər tozunun bahalaşmasında inhisarçı izləri...

## Yay aylarında əhalinin ən çox tələbat hiss etdiyi məhsullardan birinin qiymətindəki artımla bağlı ilginc iddialar səsləndirilir

***Hələ ötən ayın ikinci ongünlüyündə məlumat yayıldı ki, Bakıda şəkər tozunun 50 kiloqramlıq bir kisəsi 67 manatdan 75 manata qaldırılıb. Bu barədə məlumatı "Unikal" saytı yayıb.***

Bölgələrdə isə 50 kiloqramlıq şəkər tozunun bir kisəsinin qiyməti 50-75 manat arasında dəyişir.

Həmin vaxt media Statistika Komitəsinin məlumatına əsasən xəbər verirdi ki, 2022-ci ilin yanvar-mayı üzrə şəkər çuğundurunun əkin sahəsi 4.96 min hektar olub ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 3.3% az və



ya 5.1 min hektar ərazini əhatə edib. Cari ilin yanvar-aprel ayı ərzində ölkəyə 42.2 milyon ABŞ dolları dəyərində 78.75 min ton xam şəkər və bu dövr ərzində 186.0 min ABŞ dolları dəyərində 233 ton ağ şəkər idxal olunub. Həmçinin cari ilin 4 ayında ölkədən 9.0 milyon ABŞ dolları dəyərində 14.0 min ton ağ şəkər ixrac edilib.

2021-ci ildə isə şəkər çuğundurundan alınan bərk vəziyyətdə ağ şəkər və şəkər tozunun istehsalı 18.2 min ton olub. Ötən il ərzindəə ölkəyə 145.7 milyon ABŞ dolları dəyərində 303.7 min ton xam şəkər və 9.9 milyon ABŞ dolları dəyərində 18.0 min ton ağ şəkər idxal olunub. Həmçinin 2021-ci ildə ölkədən 32.1 milyon ABŞ dolları dəyərində 59.1 min ton ağ şəkər ixrac edilib.

İqtisadçıların fikrincə, şəkər çuğundurunu müharibə gedən və ya müharibə aparan ölkələrdən tədarük etdiyimizə görə qiymətlərin bahalaşması bununla bağlıdır. Məsələ burasındadır ki, Azərbaycan şəkər çuğundurunu əsasən Rusiya və Ukraynadan (eləcə də Qazaxıstan və Belarusdan) alır. Hazırda bu iki ölkədən tədarük imkanları məhdudlaşdığından şəkər tozunun qiymətində bahalaşma təəccüblü görünmür.

Ümumiyyətlə isə son bir ildə qlobal bazarda şəkər tozu qiymətində ciddi artım müşahidə olunur. Araşdırmalar nəticəsində məlum olub ki, şəkər tozu bazarında kəskin bahalaşma qeydə alınıb. Mütəxəssislərin sözlərinə görə, qlobal bazarda şəkər tozu qiymətlərinin artımına Rusiya - Ukrayna savaşı ilə yanaşı COVİD-19 pandemiyası, xam neftin qiymətinin yüksəlməsi, eyni zamanda

Xam neft qiymətlərinin yüksəlməsi daşınma xərclərinin 66% artmasına, təxminən 2 il davam edən pandemiya istehsalın aşağı düşməsinə səbəb olub, bununla da şəkər tozuna tələbat artıb. Bunun ardınca Rusiya və Ukrayna arasında gedən müharibə səbəbindən həm məhsulların xaricə çıxışı, həm də limanların və logistikanın fəaliyyətində problem yaranıb. Bu vəziyyət logistika xərclərinin artmasına və limanlarda uzun müddət gözləmələrə gətirib çıxarıb. Nəticədə şəkər tozu qiymətlərində nəzərə çarpacaq qədər artım qeydə alınıb.

Lakin bəziləri hesab edirlər ki, Azərbaycanda şəkər tozunun qiymətindəki bahalaşmanı yalnız obyektiv amillərlə əsaslandırmaq yanlış olardı. Belə ki, bəzi işbazlar həmin amilləri qabardaraq süni bahalaşmaya yol verirlər. "Məlumdur ki, yay aylarında əhalinin şəkər tozuna olan təlbatı artır. Çünki camaat mürəbbələr, kompotlar hazırlayır, qışa tədarük görürlər. Buna görə də kimlərsə fürsətdən faydalanmaq fikrinə düşür, qlobal bahalaşmanı əsas gətirib şəkər tozunun qiymətini daha çox qaldırırlar" deyə sosial şəbəkələrdə vətəndaşlar narazılıqlarını dilə gətirirlər.

Hətta marketləri şəkər tozu ilə təmin edən inhisarçı şirkətlərin satışa adıçəkilən məhsulu vermədiyi barədə də iddialar dolaşır. Məqsədin isə şəkər tozunu daha baha qiymətə satmaq olduğu vurğulanır. Belə iddiaları qüvvətləndirən isə odur ki, bir çox marketlərdə şəkər tozuna rast gəlinmir. Deyilənə görə, tədarükçü şirkətlər həmin məhsulun daha da bahalaşacağını nəzərə alıb onu hələlik anbarlarında saxlayırlar.

Qeyd edək ki, bu məqam bəzi millət vəkillərinin də diqqətini çəkib. Məsələn, deputat Razi Nurullayev bildirib ki, şəkər tozunun bahalaşması ilə bağlı məsələ məntiqə uyğun olmalıdır: "Əsaslandırılmalıdır ki, qiymət nə üçün artacaq? Doğrudan da şəkər tozu qiymət artırılacaq deyə mağazalardan yığışdırılırsa, bu, qanunsuz hərəkətdir. Birincisi, hələ qiymət artmayıb. Artmadığına görə məhsulu bəri başdan saxlayıb qıtlıq yaratmaq, sonra onu baha qiymətə satmaq birbaşa insanların cibinə girməkdir, onların sosial vəziyyətlərini daha da ağırlaşdırmaqdır. Ümid edirəm, "Azərsun" bu məsələyə aydınlıq gətirər, məlumat yayar. Şəkər tozu qıtlığının yaranma səbəbini bilərik. Əgər bahalaşmaya görə belə hal yaranıbsa, bu qəbuledilməzdir".

Beləliklə, yay aylarında əhalinin ən çox tələbat duyduğu məhsullardan birinin bahalaşmasında və qıtlaşmasında obyektiv, qlobal səbəblərlə yanaşı, təəssüf ki, yerli, subyektiv amillərin də rol oynadığına dair şübhələr xeyli güclüdür. Belə şübhələri aradan qaldırmaq isə aidiyyatı dövlət qurumlarının, eləcə də bazarda inhisarçı mövqeyə sahib olan tədarükçü şirkətlərin üzərinə düşür...

***Toğrul Əliyev***



# Səfər Mehdiyev könüllü gömrükçülərlə görüşdü

***Dövlət Gömrük Komitəsində fəaliyyətini başa vuran könüllü gömrükçülərə sertifikatların verilməsi, növbəti "Könüllü gömrükçü" dəstəsinin fəaliyyətə başlaması ilə əlaqədar tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, tədbirdə Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Səfər Mehdiyev, aidiyyəti struktur bölmələrin rəhbərləri, könüllü gömrükçülər iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın xüsusi diqqət və qayğısı ilə formalaşmış könüllülük hərəkatının ölkəmizin sosial-iqtisadi həyatındakı rolundan bəhs edən Komitə sədri bu fəaliyyətin gənc nəslin hərtərəfli inkişafı, bilik və bacarıqlarının artırılmasındakı əhəmiyyətindən danışıb.

DGK sədri bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi gənclər siyasəti hərtərəfli biliyə malik, sağlam, vətənpərvər gənclərin yetişməsinə şərait yaradıb.

Səfər Mehdiyev diqqətə çatdırıb ki, bu gün ölkəmizdə geniş vüsət alan könüllülük hərəkatı da bu siyasətin məntiqi davamıdır. Vurğulanıb ki, 4 ildir gömrük orqanlarında "Könüllü gömrükçü" dəstəsi fəaliyyət göstərir və könüllü gömrükçülər Komitənin müxtəlif struktur bölmələrində fəaliyyətlərini uğurla davam etdirirlər.

Komitə sədri 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyinin nümayiş etdirdiyi qəhrəmanlıq, əzm, vətənpərvərlik nümunəsinin ölkəmizdəki məqsədyönlü gənclər siyasətinin bariz nümunəsi olduğunu bildirib.

Ölkəmizdə bütün sahələrdə gənclərə geniş yer verildiyini, onların daim önə çəkildiyini, gənc nəslin potensialının üzə çıxarılması üçün məqsədyönlü addımlar atıldığını vurğulayan Komitə sədri son illər aparılan islahatlar çərçivəsində gömrük orqanlarında da gənclərə xüsusi diqqət göstərildiyini, hazırda şəxsi heyətin yarıya qədərini gənclərin təşkil etdiyini diqqətə çatdırıb.

Səfər Mehdiyev bildirib ki, könüllü hərəkatı çərçivəsində bugünədək Dövlət Gömrük Komitəsində 1400-ə yaxın gənc bilik və bacarıqlarını artırmaq, gömrük işini dərindən mənimsəmək imkanı əldə edib. Komitə sədri "Könüllü gömrükçü" dəstəsinin üzvlərinin fəaliyyətini yüksək qiymətləndirib, onlara gələcək işlərində uğurlar arzulayıb.

Könüllü gömrükçülər adından çıxış edən Zəhra Məmmədli və Vüsal Məmmədrəhimov əldə etdikləri bilik və bacarıqları sınaqdan keçirmək, həyat və iş təcrübəsi qazanmaq baxımından könüllü hərəkatının önəmindən bəhs edib, yaradılan şəraitə görə dövlətimizin başçısına təşəkkürlərini bildiriblər. Onlar fəaliyyətlərinin uğurlu təşkilinə görə Dövlət Gömrük Komitəsinin rəhbərliyi və kollektivinə də minnətdarlıqlarını ifadə ediblər.

Tədbirin sonunda "Könüllü gömrükçü" dəstəsinin üzvlərinə sertifikatlar təqdim edilib.

# Paşinyanın oğlu akademiyadan qovuldu

***Ermənistanın Baş naziri Nikol Paşinyanın oğlu Aşot Paşinyan təhsil aldığı akademiyadan qovulub.***

"Unikal" erməni KİV-ə istinadən xəbər verir ki, Ermənistanın dövlət incəsənət akademiyasında oxuyan Aşot Paşinyan dərslərdə iştirak etmədiyi üçün akademiyadan xaric edilib.

Bildirilir ki, Aşot yalnız ilk 3 gün dərsə gedib, ondan sonra o, gəlməyib.

Hətta yerli KİV Aşotun atasının taleyini təkrarladığını yazıb. Məlumata görə, Nikol Paşinyan YDU-nun tələbəsi olanda o dövrün iqtidarından narazı olduğu üçün dərsə getmirmiş.

***Gülayə Mecid***

# “AMEA inkişaf etməlidir, amma həm də qorunmalıdır”

## Akademik Rasim Əliquliyev: “Son zamanlar Akademiyanın daxilində və ətrafında cərəyan edən xoşagəlməz proseslər də elmin, alimin nüfuzuna müəyyən qədər zərbə vurmuş oldu”



***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) vitse-prezidenti, AMEA İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev ”Unikal”a müsahibə verib.***

***-Hörmətli Rasim müəllim, AMEA Rəyasət Heyətinin xüsusi iclasında çıxışınız zamanı bildirdiniz ki, Elmlər Akademiyası olaraq müəyyən qədər nüfuzumuzu itirmişik. Necə düşünürsünüz, AMEA-nın nüfuzunu itirməsi nə ilə bağlıdır və nüfuzu artırmaq üçün hansı işlər görülməlidir?***

-Bildiyiniz kimi cəmiyyətdə alimin, elmin nüfuzu məsələsinin obyektiv və subyektiv səbəbləri vardır. Məlumdur ki, keçmiş Sovet sisteminin dəyərləri yeni sistemin dəyərlərindən əsaslı şəkildə fərqlənir. O zaman alimdən elmi biliklər əldə etmək və pedaqoji fəaliyyətlə məşğul olaraq insanları maarifləndirmək tələb olunurdusa, bu gün alimin qarşısına həmin ənənəvi funksiyalarla yanaşı, eyni zamanda, ölkədə sosial-iqtisadi münasibətlərin yeni dəyərlər əsasında qurulması, azad iqtisadiyyat və müasir dövrün çağırışlarına adekvat olaraq rəqəmsal iqtisadiyyatın formalaşması, qabaqcıl elmi biliklərin kommersiyalaşdırılması, ölkənin milli maraqları və strateji milli prioritetlərin müəyyən olunmasına xidmət edən, innovativ perspektivlərə malik olan elmi problemlərin araşdırılması, keyfiyyətli bilik və layihələrin ortaya qoyulması və elmin inkişafına töhfə verilməsi kimi bir sıra mühüm vəzifələr qoyulur.

Sosial-iqtisadi problemlərin mövcud olduğu mürəkkəb şəraitdə gənc Azərbaycan dövlətinin elmə dəstək verməsi son dərəcə təqdirəlayiqdir. Digər ölkələrdə elmlər akademiyaları ilə bağlı fərqli qərarlar qəbul olunsa da, ölkəmizdə Akademiyaya dövlət tərəfindən dəstək göstərilməsi, ona milli status verilməsi, AMEA qarşısında mühüm vəzifələrin qoyulması və müxtəlif dövlət proqramlarına elmi qurumların cəlb olunması Azərbaycan elminə, o cümlədən, Elmlər Akademiyasına etimad göstərildiyini bir daha sübut edir. Hər bir elmi müəssisə, alim cəmiyyətdə nüfuzun qazanılması üçün dövlət siyasətinin yüksək səviyyədə həyata keçirilməsində yaxından iştirak etməli, cəmiyyətin inkişaf etdirilməsində müasir dünyanın qlobal çağırışları kontekstində daha da fəal olmalıdır. Alimin biliklərini paylaşması, müvafiq istiqamətlərdə elmi kadr potensialının yüksəldilməsinə töhfələr verməsi, ölkə əhəmiyyətli elmi problemlərlə bağlı fundamental tədqiqatlar aparması, beynəlxalq müstəvidə öz ölkəsini layiqincə təmsil etməsi və s. onun nüfuzunun formalaşması və qorunub saxlanılmasına təsir edən əsas amillərdəndir. Müvafiq istiqamətdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində digər sferalarda olduğu kimi, elm və təhsil sahələrində də kompleks islahatlar aparılır. Bununla əlaqədar olaraq, son illərdə Akademiyanın fəaliyyətinin dövlət siyasətinin prioritetlərinə, müasir dünyanın qlobal çağırışlarına uyğunlaşdırılması üçün müəyyən institusional tədbirlər həyata keçirilir, müxtəlif səviyyələrdə çoxsaylı müzakirələr aparılır, həll yollarının tapılması üçün beynəlxalq təcrübə öyrənilir, yeni ideya və təkliflər irəli sürülür.

***-Amma bir elm mərkəzi kimi AMEA-nın nüfuzunu itirməsi məsələsi ortadadır...***

-Nüfuz məsələsinin subyektiv amilinə gəlincə, etiraf etmək lazımdır ki, son zamanlar AMEA-nın daxilində və ətrafında cərəyan edən xoşagəlməz proseslər də elmin, alimin nüfuzuna müəyyən zərbə vurmuş oldu. Hazırda bu problemlərin aradan qaldırılması istiqamətində məqsədyönlü işlər həyata keçirilir. Minnətdarlıq hissi ilə onu da vurğulamaq istəyirəm ki, bu işdə, yəni AMEA-nın fəaliyyətinin, elmi nəticələrinin populyarlaşdırılmasında ölkəmizin media qurumları, nəticə etibarı ilə ölkəmizdə elmin, texnologiyanın, alimlərin nüfuzunun yüksəldilməsinə mühüm dəstək verirlər. Güman edirəm ki, AMEA, elmi müəssisələr, alimlər KİV ilə işin daha da təkmilləşdirilməsi, elmi nailiyyətlər haqqında ictimaiyyəti mütəmadi olaraq məlumatlandırmalıdır. Bir həqiqəti unutmamalıyıq ki, nüfuz pay verilmir, gərgin əmək nəticəsində qazanılır.

***-Cəmiyyətdə AMEA-da struktur islahatlarının aparılmasına ehtiyac olduğu ilə bağlı fikirlər səsləndirilir. Hansı struktur islahatlarına ehtiyac var və siz AMEA-nın strukturunun necə olmasını istərdiniz?***

-Bildiyiniz kimi, cari ilin aprel ayında Azərbaycan Milli Elmlər Akademiyasının Ümumi yığıncağında ölkənin elmi ictimaiyyətində narahatlıq doğuran aktual məsələlərə, Akademiyanın fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair bir sıra islahat xarakterli təkliflər təqdim etdik. Bu təkliflərin mahiyyəti ondan ibarətdir ki, vaxt itirmədən AMEA-da aparılan islahatlar kontekstində müasir dövrün qlobal çağırışlarına cavab verən yeni ixtisaslar və bilik sahələri üzrə peşəkar kadrların hazırlanması, elmi jurnalların dərci üçün təşkilati-texniki və maliyyə dəstəyinin göstərilməsi, Azərbaycan alimlərinin dünya elminə inteqrasiyası üçün onların nüfuzlu beynəlxalq elmi bazalara (WoS, SCOPUS və s.) çıxışının təmin olunması məsələsinin ölkə səviyyəsində, dövlət büdcəsi çərçivəsində həll olunması, məqalələri nüfuzlu beynəlxalq elmi bazalara daxil edilmiş alimlərin əməyinin stimullaşdırılması, elmin təşkili, idarə olunması və koordinasiyasının təkmilləşdirilməsi kimi bir sıra mühüm problemlərə xüsusi diqqət yetirməliyik. Bütün bunlar AMEA-nın hüquqi statusuna yenidən baxılmasını, yaradıcılıq azadlığı, demokratik idarəetmə, biliklərin kommersiyalaşdırılması prinsiplərini əsas götürməklə, Akademiyanın fəaliyyətini tənzimləyən, həyata keçiriləcək islahatlara yol açan, bürokratik maneələr yaratmayan yeni normativ-hüquqi bazanın işlənilməsini zəruri edir.

Düşünürəm ki, ümumiyyətlə müxtəlif səviyyələrdə irəli sürülmüş təkliflərin analizi, qiymətləndirilməsi, sistemləşdirilməsi, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi, müvafiq tələblərə cavab verən konsepsiyanın hazırlanması üçün peşəkar alim və mütəxəssislərdən ibarət islahatlar komissiyası yaradılmalıdır. Eyni zamanda, AMEA-da bu islahatların təşkilini, qarşıya qoyulacaq vəzifələrin həyata keçirilməsini təmin etmək potensialına, dinamik, çevik iş qabiliyyətinə malik yeni kadrlar cəlb olunmalıdır.

***-Azərbaycan iqtisadiyyatının daha çox elmi ixtiralara, innovasiyalara ehtiyacı olduğu, elmi-texniki nailiyyətlərin istehsalata tətbiqinin böyük aktuallıq daşıdığı bir dövrdə yaşayırıq. AMEA bu kimi məsələlərə hansı töhfələr verib?***

-Bildiyiniz kimi, ölkəmizdə yüksək səviyyədə innovativ mühit formalaşmaqdadır. II Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, ölkə iqtisadiyyatına inteqrasiyası, dayanıqlı və tarazlı inkişafının təmin edilməsi, yüksək standartlara cavab verən sosial rifaha nail olunması məqsədilə bir sıra dövlət əhəmiyyətli layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

Hazırda işğaldan azad olunmuş ərazilərdə ekoloji və mədəni irs nümunələrinin vəziyyətinin təhlil olunması, təbii resurslardan səmərəli istifadə, ətraf mühitin mühafizəsi, torpaqların minalardan təmizlənməsi üçün qabaqcıl texnologiyaların tətbiqi, yaşıl enerjinin istehsalı, ağıllı yaşayış məntəqələri və infrastrukturun formalaşdırılması kimi bir sıra mühüm problemlər mövcuddur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin fərman və sərəncamlarını, çağırışlarını rəhbər tutaraq işğaldan azad olunmuş ərazilərin bərpası, yenidən qurulması və inkişafı istiqamətində işlərin həyata keçirilməsində AMEA yaxından iştirak edir.

AMEA-da müxtəlif dövlət qurumları, biznes təşkilatları və vətəndaş cəmiyyəti institutları ilə mövcud problemlərin həlli istiqamətində elmi-nəzəri və praktiki məsələlərə dair birgə tədqiqatlar həyata keçirilir, müvafiq istiqamətdə çoxsaylı elmi-innovativ layihələr hazırlanır, müxtəlif sferalarda tətbiq oluna bilən mühüm elmi nəticələr əldə olunur.

Əminliklə deyə bilərəm ki, hazırda Azərbaycan dövlətinin sosial-iqtisadi maraqlarının təmin olunması, qabaqcıl texnologiyaların tətbiqi və onların yaratdığı problemlər, ölkədə IV Sənaye İnqilabının, süni intellekt texnologiyalarının gətirdiyi reallıqlar kontekstində hər bir fəaliyyət sahəsində innovativ proseslər gedir. Böyük elmi intellektual potensiala malik olan AMEA alimləri müvafiq işlərin həyata keçirilməsinə dəyərli töhfələr verirlər.

Ümumiyyətlə, AMEA-nın əsas prioritetlərindən biri ölkəmizin müxtəlif sferalar - humanitar, sosial-iqtisadi, hərbi-strateji, yeni texnologiyalar sahəsində mövcud olan elmi-nəzəri və tətbiqi xarakterli problemlərin həllinə bilavasitə dəstək verməkdir. Bu problemlərin aşkarlanması, araşdırılması və rəqabətədözümlü elmi-innovativ potensiala malik nəticələrin əldə olunması istiqamətində AMEA-nın bütün elmi müəssisələri, alimləri əzmlə çalışırlar. Hər il AMEA-da elmi nailiyyətlər sərgisi təşkil olunur, müxtəlif elmi tutumlu layihələr, ixtiralar ölkə ictimaiyyətinin diqqətinə çatdırılır. Eyni zamanda, AMEA-nın Yüksək Texnologiyalar Parkında fəaliyyət göstərən şirkətlər, biznes inkubatorları, startaplar elmi müəssisələrlə səmərəli əməkdaşlıq nəticəsində unikal keyfiyyətlərə malik eksperimental smart qurğular, sistemlər yaradılır, müvafiq dövlət qurumlarının dəstəyi ilə sınaqdan keçirilir, xaricdən texnoloji asılılığın azaldılması üçün zəruri tədbirlər görülür.

***-Bir neçə dəfə Azərbaycan Milli Elmlər Akademiyasının ləğv olunması ilə bağlı fikirlər səsləndirilib. Bildirilib ki, AMEA-nın ləğvinə nail olmalı, tərkibindəki elmi-tədqiqat institutlarına publik hüquqi şəxs statusu verilməlidir. Necə düşünürsüz, AMEA-nın ləğv olunmasına ehtiyac varmı?***

-Bildiyiniz kimi, hazırda ölkəmizdə aparılan genişmiqyaslı islahatlar, həmçinin qlobal çağırışlar və rəqəmsal transformasiyalar kontekstində dövlət siyasəti çərçivəsində mühüm işlər və layihələr həyata keçirilir. Bu taleyüklü, strateji vəzifələrin həyata keçirilməsi istiqamətində müxtəlif dövlət qurumlarının fəaliyyətinin təkmilləşdirilməsinə ehtiyac olduğu kimi, etiraf etmək lazımdır ki, AMEA-da da illərdir mövcud olan obyektiv və subyektiv xarakterli çox saylı problemlərin həll olunmasına ciddi ehtiyac yaranıb. Bu istiqamətdə AMEA-da müxtəlif səviyyələrdə, geniş spektrdə müəyyən işlərin həyata keçirilməsi üçün bir sıra təşəbbüslər irəli sürülür. Belə ki, bir tərəfdən, AMEA-nın təhsil, dövlət və biznes qurumları ilə işgüzar və səmərəli münasibətlərin qurulması, struktur islahatlarının aparılması, beynəlxalq əməkdaşlığın gücləndirilməsi, istedadlı gənclərin aşkarlanması və elmi fəaliyyətə cəlb olunması, ölkənin milli maraqlarına xidmət edən elmi problemlərin və prioritetlərin müəyyənləşdirilməsi, elmi-intellektual biznesin formalaşdırılması və s. istiqamətində mövcud olan problemlərin həlli üçün müxtəlif format və səviyyələrdə çox geniş müzakirələr aparılır, səmərəli qərarların qəbulu üçün yollar axtarılır, AMEA-nın yaxın gələcəkdə inkişaf strategiyasının müəyyənləşdirilməsi üçün müəyyən platforma işlənilir. Belə bir şəraitdə ictimai müzakirələrdə, mediada AMEA-nın fəaliyyəti, cəmiyyətdə rolu və missiyası, gələcək taleyi, hətta bağlanması, elmi müəssisələrin müxtəlif qurumlara birləşdirilməsi ilə əlaqədar çoxlu sayda konstruktiv, bəzən də qeyri-akademik və konyuktur fikirlərə rast gəlinir. Əlbəttə ki, obyektiv, elmi-intellektual əsaslandırılmış tənqidlər ümumi işimizin xeyrinədir və bu dəstəyə görə biz minnətdar olmalıyıq.

Unutmaq lazım deyil ki, AMEA xalqımıza, dövlətimizə 80 ilə yaxın müddətdir şərəflə xidmət edir. Ölkəmizdə istənilən istiqamətdə - istər yerin altında və üstündə, Xəzər dənizində, cəmiyyətin inkişafında, ictimai təfəkkürün intellektuallaşdırılmasında, təhsilin inkişafında, ana dilimizin qorunmasında, tariximizin araşdırılmasında, bir sözlə harada nailiyyətlər varsa, orada AMEA-nın, ümumiyyətlə, Azərbaycan alimlərinin böyük xidmətləri olub və bu gün də gərgin zəhmət tələb edən o şərəfli intellektual fəaliyyət uğurla davam edir.

Bilirsiniz, elə şeylər var ki, onu sökmək də, uçurtmaq da, parçalayıb ora-bura birləşdirmək də olar. Amma ölkənin əsas intellektual resurslarının təmərküzləşdiyi, elm sahələrinin bir-biri ilə çulğalaşdığı, beynəlxalq aləmdə Azərbaycan elminin əsas siması olan AMEA kimi uzun illərdən bəri formalaşmış, təşkilatlanmış bir qurumu bağlamaq haqqında düşünmək, yumşaq desək, heç də müdriklikdən xəbər vermir. Yeri gəlmişkən, əvvəllər də belə cəhdlər olub. Qeyri-ixtiyari olaraq yadıma ulu öndər Heydər Əliyevin çətin dövrdə AMEA-nın taleyi ilə bağlı ortaya qoyduğu taleyüklü mövqe, “AMEA milli sərvətdir. Biz onu qoruyub saxlamalıyıq” müdrik kəlamı düşür və bu gün də aktualdır.

Əlbəttə, biz hamımız etiraf edirik ki, AMEA təkmilləşdirilməlidir, inkişaf etməlidir, ölkənin maraqlarına, qlobal çağırışlara adekvat və yenidən qurulmalıdır. Gəlin əvvəlcə, cənab Prezident İlham Əliyevin müvafiq tapşırıqlarını, ölkədə və regionda baş verən reallıqları nəzərə alaraq, AMEA-nın yenilənməsi istiqamətində qüvvələrimizi, potensialımızı səfərbər edək, səmərəli modellər axtaraq, cəmiyyətdə elmin, texnologiyaların, alimlərin nüfuzunun yüksəldilməsi, gənclərin elmə marağının artırılması, ölkəmizin intellektual potensialının qorunması və gücləndirilməsi və s. ilə əlaqədar kompleks islahatlar həyata keçirək. Zaman keçər elmin, təhsilin, biliklər iqtisadiyyatının vəhdəti güclənər, dərinləşər, ölkəmizdə qlobal çağırışların və rəqəmsal transformasiyaların təsiri ilə yeni reallıqlar yaranar. Cəmiyyətin inkişafının yeni mərhələsində elmin, təhsilin, texnologiyaların, innovasiyanın qarşılıqlı inteqrasiyası proseslərinin kompleks idarə olunması üçün yeni-yeni təkmil modellər meydana çıxar.

-Məlum olduğu kimi, ölkəmizdə Nobel mükafatçısı yoxdur. Azərbaycan elminin hansı nümayəndəsini Nobel mükafatına təqdim etmək olar və ya niyə “Nobel” ala bilmirik?

- Azərbaycan elmi XX əsrdə sovet elminin tərkib hissəsi olub. Dünya elminə çıxış əldə etmək, beynəlxalq elmi mərkəzlər ilə birbaşa təmas qurmaq, birgə tədqiqatlar aparmaq son onilliklərdə mümkün olub. Bütün bu problemlərə baxmayaraq, ölkəmizdə intellektual insan resurslarının formalaşması, xarici elm və təhsil müəssisələrində birgə tədqiqatların aparılması, elmi kadrların yetişdirilməsi, beynəlxalq səviyyədə rəqabətədözümlüyün yüksəldilməsi ilə əlaqədar dövlət tərəfindən müvafiq proqramlar qəbul olunur. Demək istədiyim ondan ibarətdir ki, Azərbaycan gənc istedadlarının, məhsuldar alimlərinin beynəlxalq elmi mühitə inteqrasiyası dünyada tanınmış Nobel, Filds, Türinq və s. kimi mükafatların da ölkəmizə gətirilməsi üçün ümidlər yaradır. Əgər Nobel mükafatı laureatlarının dünya üzrə statistikasına, ölkələr, universitetlər və s. əlamətlərə görə paylanmasına baxsaq hər şey aydın olar. Məsələn, Harvard, Stenford, Oksford universitetlərində və dünyanın digər aparıcı ali təhsil müəssisələrində 50-dən çox Nobel mükafatı laureatları fəaliyyət göstərir. Mən siyasətə və digər amillərə bağlı olan Nobel mükafatlarını nəzərdə tutmuram. Ona görə də bu məsələdə realist, eyni zamanda nikbin olmaq lazımdır. 30 il bundan qabaq heç ağlımıza da gəlməzdi ki, Azərbaycan alimlərinin elmi nəticələri müxtəlif beynəlxalq elmi mərkəzlər, cəmiyyətlər tərəfindən yüksək qiymətləndirilər, məsələn, Stenford Universitetinin reytinqlərində layiqli yer tutar. Ona görə ölkəmizin belə sürətlə inkişafı, dünyanın aparıcı ölkələri ilə çox səmərəli münasibətlərin qurulması bizə ümid verir ki, Azərbaycan alimləri yaxın gələcəkdə çox yüksək zirvələr fəth edəcəklər.

***Anar Kəlbiyev***

# Bəzi nazirliklərdə məmurların təzə hoqqası...

## Belə davam edərsə, müəyyən vəzifə sahibləri ilə bağlı da həbs videoları izləməyimiz qaçılmazdır



***Son illər ölkədə aparılan genişmiqyaslı kadr və struktur islahatlarının hədəflərindən biri də şəffaflığın artırılması, qanunçuluğun gücləndirilməsidir. Həmin islahatlarla bərabər bir sıra nazirliklər, yerli icra hakimiyyətləri başda olmaqla müəyyən dövlət qurumlarında həyata keçirilən anti-korrupsiya əməliyyatları, bu əməliyyatlar zamanı baş tutan həbslər də elə eyni hədəfə hesablanıb. Lakin təəssüf ki, bir sıra məmurlar hələ də nə bu islahatların mahiyyətini dərk edirlər, nə də vəzifəli şəxslərin hüquq-mühafizə orqanlarının əməkdaşları tərəfindən qandallanmasından nəticə çıxarırlar.***

Bu qənaətimizi möhkəmləndirən faktorlardan biri isə son zamanlar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin açıqlamalarıdır. Məsələn, yola saldığımız həftə məlum oldu ki, adıçəkilən qurum dövlət satınalmalarında ciddi qanun pozuntusu ilə əlaqədar Baş Prokurorluğa müraciət edib.

Mövzu ilə bağlı rəsmi məlumatdan aydın olurdu ki, Fövqəladə Hallar Nazirliyinin (FHN) Maddi-Texniki Təchizat İdarəsindən daxil olmuş yekun protokollar təhlil edilərkən elektron satınalma vasitəsilə keçirilmiş açıq tenderlərdə iştirak üçün bəzi dövlət orqanları və maliyyə institutları adından təqdim edilən sənədlərin saxtalaşdırıldığı üzə çıxıb!

Belə ki, müxtəlif atributların və hesablama texnikası, avadanlıqlar və isitmə-soyutma sistemlərinin təmiri işləri və texniki xidmətin satın alınması üzrə keçirilmiş açıq tender prosedurlarında iştirak edən “Standart TT 2022”, “Business Connection” və “Furniture Art” MMC-lərə aid bank arayışları və digər sənədlərə müdaxilə edilməklə saxtalaşdırılıb və dövlət satınalmalarının vahid internet portalına yüklənib.

Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin bu məlumatı yalnız ona görə diqqət çəkmir ki, söhbət hansısa dövlət satınalması üçün təqdim olunan sənədlər saxtalaşdırılıb, kimlərsə saxta yollarla tender udmaq fikrinə düşüb! Sözügedən məlumat həm də ona görə diqqət çəkir ki, oxşar qanunsuzluq hallarının axır vaxtlar xeyli geniş yayıldığı görünür.

Məsələn, ötən ay Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti başqa bir nazirliyin - Təhsil Nazirliyinin təqdim etdiyi sənədlər əsasında bu qurumun tabeliyində fəaliyyət göstərən bir sıra təhsil müəssisələrində dövlət satınalmaları sənədlərinin saxtalaşdırılması ilə əlaqədar Baş Prokurorluğa müraciət ünvanlamışdı. Həmin vaxt məsələ ilə bağlı KİV-ə verilən məlumatda deyilirdi ki, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti adından hazırlanmış və Təhsil Nazirliyinin tabeliyində olan qurumları üçün bir mənbədən satınalma metodunu tətbiq etməklə həyata keçirilməsini, həmçinin müsabiqələr nəticəsində müqavilələrin bağlanılmasını nəzərdə tutan 25-dən çox saxta məktub həmin nazirlik tərəfindən Dövlət Xidmətinə təqdim edilib. Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələri tərəfindən saxta sənədlərin hazırlanması əməllərində cinayət tərkibi əlamətlərinin olduğunu nəzərə alaraq Dövlət Xidməti məsələnin araşdırılması və hüquqi qiymətin verilməsi məqsədilə Baş Prokurorluğa müraciət edib.

İstisna deyil ki, biz gələcəkdə də Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən bənzər açıqlamaların şahidi olacağıq. Çünki yazının əvvəlində də vurğuladığımız kimi, hələ də bəzi dövlət qurumlarında həyata keçirilən genişmiqyaslı islahatların məqsədlərindən, hədəflərindən xəbərsiz, eyni zamanda aparılan məmur həbslərindən dərs almayan vəzifəli şəxslərin varlığı aydın görünür. Belə post sahibləri "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməkdə, büdcə vəsaitlərinə yan gözlə baxmaqda israr edirlər. Üstəlik, iş o yerə çatıb ki, hansısa dövlət satınalmasını özlərinə sərf edəcək şəkildə yekunlaşdırmaq üçün sənəd saxtalaşdırmaqdan da çəkinmirlər! Özü də bu qanunsuzluğun üstünün əvvəl-axır açılacağını, qol qoyduqları əməlin hüquqi cəzasının isə ağır olacağını bilə-bilə!

Düzü, bu anormallığa izah vermək çətindir: doğrudanmı, bəzi məmurlar elə hesab edirlər ki, onlar toxunulmazdırlar, elə kabinetlərindəcə, cinayət başında yaxalanan, qollarına qandal vurulan vəzifə sahiblərinin acı aqibətindən sığortalanıblar?! Axı ölkə rəhbərliyi səviyyəsində dəfələrlə bəyan edilib ki, heç bir məmur kimsəyə arxayın olmasın, heç vaxt elə düşünməsin ki, hansısa səbəb yaxud səbəblərdən onların özbaşınalıqlarına göz yumulacaq. Lakin bu halda belə biriləri yenə də ənənəvi əməllərindən əl çəkmək istəmir, yeni dövrün çağırışlarına qulaqlarını tıxayırsa, o zaman, Anadolu türkləri demiş, kimsə qüsura baxmasın: biz kabinetində qandallanıb cəzaçəkmə müəssisələrinə göndərilən, yalnız kreslosunu deyil, azadlığını da itirən məmurların, vəzifə sahiblərinin həbs videolarını hələ çox görəcək, çox izləyəcəyik...

***Sənan Mirzə***



# Dövlətin ədalət tərəzisinə uzanan əllər

***Azərbaycanda dövlətin müəyyənləşdirdiyi sosial siyasətin icrasında ciddi problemlər mövcuddur. Amma qanuna baxsaq, dövlətin sosial siyasəti ilə bağlı mühüm məqamların olduğunu görərik. Yəni, dəftər-kitabda hər şey mükəmməldir.***

Şəhid ailələri, qazilər, müharibə veteranları, əlillər, ahıllar, kimsəsiz uşaqlar və sair kateqoriyadan olan insanların qayğısını çəkmək üçün kifayət qədər imkanlar var. Azərbaycan kasıb ölkə deyil. Allaha şükr olsun ki, neftimiz, qazımız, digər faydalı qazıntılarımız, turizmimiz, ümumiyyətlə, pul gətirən, insanımızın layiqli yaşamasını təmin etmək üçün çox şeyimiz var. Ən əsası Dövlət Baba var...

Kim nə deyir desin, mənim üçün hər zaman kutsal bir Dövlət Baba anlayışı olub, var, olacaq. Doğrudur, o babam zamanında mənim başıma tumar çəkməyib. Ya zəlzələdən, ya vəlvələdən mən lazım olan himayəni hiss etmədən böyümüşəm. Elə indi də “qorxma mən səninləyəm” demir, amma yenə də Dövlət Baba mənim üçün dəyərlidir, toxunulmazdır. Kimsənin ona toxunmasına da imkan verməmişik, vermərik də. Haqqımız olanı yeyiblər, susmuşuq, ar eləmişik, qarın davası, kreslo davası, səlahiyyət davası, aparmamışıq. Amma istənilən müstəvidə canımızla, qanımızla harda, hansı şəraitdə olmasından asılı olmayaraq, vətən, millət, dövlət davasına hazır olmuşuq. Bəzən hislərimizi cilovlaya bilməmişik, etiraz eləmişik, Dövlət Babaya sitəm eləmişik, amma heç vaxt asi düşməmişik. Çünki bizim üçün bir prinsip var, Dövlətdən inciyərlər, amma küsməzlər.

Bu gün dövlətin himayəsində olmalı insanların xeyli hissəsi narazıdır. Fakt odur ki, haqlı-haqsız narazı var. Əmin edirəm ki, bu narazılığın ən əsas səbəbkarları Dövlətin səlahiyyət verdiyi adamlardır. Bu adamlar kreslolarına, onlara verilən səlahiyyətə necə aludə olublarsa, dövlətin gücünə necə öyrəşiblərsə, gözləri ayaqlarının altını görmürlər. O gücü özlərinin gücü, o səlahiyyəti dədələrinin mirası bilirlər. Reallıqdan o qədər uzaqlaşıblar ki, nəyin doğru, nəyin yanlış olduğunu, nəyin haqq, nəyin nahaqq olduğunu unudublar. Xırdalığa getmək istəmirəm. Zatən bu ölkədən hər kəs nəyin nə, kimin kim olduğunu çox yaxşı bilir.

Müğənni Roza Zərgərlinin oğulluğu olar Corc Qafarova mənzil verilməsinin yaratdığı ajiotaj da bu ədalətsizlikdən doğan nəticədir. Uşaq evində böyümüş bir gəncin dövlət tərəfindən evlə təmin olunmasında heç bir qəbahət yoxdur. Əksinə, dövlətin bir gəncə sahib çıxması önəmli məsələdir və bu addım təqdir olunur. Onda bəs niyə belə bir həngamə qopur? Yanlışlıq hardadır? Dövlətin sosial siyasətindəmi? Görünən odur ki, dövlətin sosial siyasətinin icraçıları ədalət tərəzisinə barmaq edirlər və bu barmağı da hər kəs görür. Elə bu qara barmaqlara görədir ki, dövlətin sosial siyasətinə kölgə düşür. İndi artıq tərəziyə barmaq edilmir, qara əllər dörd bir yandan hücumdadır. Ona görə də kimsə bu tərəzinin doğru çəkdiyinə inanmır.

Dövlətin gücü onun ədalətindədir. Nə yazıq ki, bu qara əllər dövlətin ədalətinə kölgə salıblar. İndi bircə yol qalıb. Dövlət ədalət tərəzisinə uzanan bu qara əlləri kəsib atmalıdır, ya da...

***Zaur Əhməd***

# Qurbanlıqların qiyməti kəskin artdı



***İyulun 9-10-da qeyd olunacaq Qurban bayramı günlərində qurbanlıq heyvan kəsimi və satışı yerləri açıqlanıb. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi (AQTA) bu barədə məlumat yayıb.***

Agentlikdən bildirilib ki, Qurban bayramı günlərində ölkə üzrə 134 ünvanda qurbanlıq heyvanların satışı və kəsimi xidmətləri təşkil ediləcək. Həmin satış məntəqələrində baytarlıq nəzarətindən keçmiş və sanitar-gigiyenik tələblər gözlənilməklə kəsilmiş qurbanlıq heyvanlar sifarişçilərə təqdim olunacaq. Bununla yanaşı, bir sıra regionlarda AQTA ilə razılaşdırılmaqla, səyyar heyvan kəsimi çadırları quraşdırılaraq qurbanlıq heyvanların baytarlıq nəzarəti altında kəsimi və satışı həyata keçiriləcək.

Ölkə ərazisində fəaliyyət göstərən kifayət qədər soyuducu infrastrukturuna malik ticarət şəbəkələri tərəfindən əvvəlcədən qəbul olunmuş sifarişlərə uyğun bayram günlərində qurbanlıq heyvanların kəsilməsi və ətinin vətəndaşlara çatdırılması nəzərdə tutulub. Bununla bağlı həmin satış şəbəkələri tərəfindən bayrama bir neçə gün qalmış əhaliyə əlavə məlumatlar veriləcək.

Vətəndaşlar həmin ticarət şəbəkələrinin ünvanları və əlavə məlumatları //afsa.gov.az/uploads/satish_2022.pdf linkə daxil olmaqla əldə edə bilərlər.

Qurban bayramı günlərində respublika üzrə 134 ünvanda fəaliyyət göstərəcək qurbanlıq heyvanların satışı və kəsimi yerlərindən 61-də həm kəsim, həm satış, 54-də qurbanlıq heyvanların satışı, 19-də isə yalnız heyvan kəsimi xidmətləri vətəndaşlara təklif olunacaq.

Vətəndaşlar bayram günlərində saat 08:00-dan 20:00-dək qurbanlıq heyvanları satmaq, almaq və ya kəsdirmək üçün yuxarıda qeyd edilən xidmətlərdən yararlana bilərlər.

Bəs hazırda bazarda qurbanlıq heyvanların qiymətləri nə yerdədir?

Bir neçə il öncə əvvəl İqtisadiyyat Nazirliyinin, sonralar isə Kənd Təsərrüfatı Nazirliyinin təşkil etdiyi qurbanlıqlar artıq olmayacaq. O zaman 90-95 manata satılan quzuların gətirilməsi dayandırılıb.

İndi sırf bazar siyasətinə uyğun olaraq, diri çəkidə qoyunun 1 kiloqramının qiyməti 6.90-7.50 manat arasında dəyişir. Təqribən 30 kiloqram gələn qoyunun minimum 15 kilo təmiz ətinin olduğu bildirilir. Belə olan halda, 30 kiloqramlıq bir qoyunun qiyməti təqribən 207-225 manat arasında, bir kiloqram ətin qiyməti isə təqribən 14-15 manat arasında dəyişir. Qoyunu diri çəkidə almaq istəməyənlər isə kəsdirib təmiz ətinin pulunu ödəyə bilərlər.

Belə olan halda da ətin bir kiloqramının qiyməti 14-15 manata təklif edilir.

# Vilayət Eyvazov mayoru şöbə rəisi təyin etdi

***Daxili İşlər Nazirliyində (DİN) kadr təyinatı olub.***



"Unikal" report-a istinadən xəbər verir ki, bununla bağlı daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov əmr imzalayıb. Əmrə əsasən, polis mayoru Əliyev Surxay Ramiz oğlu Baş Narkotiklərlə Mübarizə İdarəsinə şöbə rəisi təyin olunub.

Qeyd edək ki, Surxay Əliyev daha öncə Baş Narkotiklərlə Mübarizə İdarəsində xüsusilə mühüm işlər üzrə baş əməliyyat müvəkkili vəzifəsində çalışıb.

## ELAN

**Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən Quliyev Mətləb Hüseyn oğluna verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.**

# Yaşar Həsənovdan 100 milyon manatlıq şok miras...

## "Azəristiliktəchizat"ın yığılmış zərərinin məbləği eşidənləri heyrətə gətirdi

***"Azəristiliktəchizat" ASC 2021-ci ili 10,372 milyon manat zərərlə başa vurub. Halbuki, qurum 2020-ci ildən 1,033 milyon manat mənfəətlə çıxmışdı. Bu barədə qurumun maliyyə hesabatından məlum olub. Sənədə əsasən, ötən il səhmdar cəmiyyətin yığılmış zərəri 11,7% artaraq 98,918 milyon manata çatıb.***

Bu il yanvarın 1-nə "Azəristiliktəchizat"ın aktivləri 189,678 milyon manat olub ki, bu da bir il əvvələ nisbətən 1,2% çoxdur. Hesabat dövründə qurumun öhdəlikləri 24% artaraq 59,15 milyon manata, balans kapitalı isə 6,7% azalaraq 130,528 milyon manata enib.

Xatırladaq ki, "Azəristiliktəchizat" ölkə Prezidentinin "İstilik təchizatı sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında" 8 iyun 2005-ci il tarixli sərəncamı əsasında yaradılıb. Onun nizamnamə kapitalı 136,685 milyon manatdır. Səhmdar cəmiyyət Bakıda və regionlarda yaşayış evlərini və binaları, təhsil, səhiyyə müəssisələrini və digər sosial təyinatlı obyektləri istiliklə təchiz edir.



Onu da yada salaq ki, bu ilin fevralında adıçəkilən ASC-nin rəhbərliyində dəyişiklik baş verdi. Belə ki, Yaşar Məmmədəli oğlu Həsənov sədr vəzifəsindən azad edildi.

Yaşar Həsənovun vəzifəsini itirməsində sürpriz heç nə yox idi: onun rəhbərliyi dövründə "Azəristiliktəchizat"in fəaliyyəti ilə bağlı kifayət qədər tənqidlər səslənib. Ən əsası isə qurumun maliyyə durumu ilə bağlı müxtəlif ilginc iddialar ortaya çıxıb. ASC-nin yola salmaq üzrə olduğumuz həftə açıqlanan hesabatı bu deyilənləri təsdiqləyib.

"Unikal" keçmiş saylarından birində "Azəristiliktəchizat"ın yarıtmaz fəaliyyəti ilə bağlı araşdırma dərc etmişdi. Həmin araşdırmada da vurğulamışdıq ki, qurum öz vəzifələrinin öhdəsindən gəlməkdə çətinlik çəkir. Vurğulamışdıq ki, bu dövlət şirkətinin zərərinin 90 milyon manat kimi şok rəqəmlə ifadə olunması anormaldır. Həm də tamamilə anormaldır! Çünki Yaşar Həsənovun rəhbərliyi dövründə, ümumiyyətlə isə yarandığı vaxtdan - 2005-ci ildən bu yana "Azəristilik" dövlətdən on milyonlarla manatlıq dotasiya alıb. Məsələn, 2006-2013-cü illərdə dövlət büdcəsindən bu quruma 110 milyon manat ayrılıb. Təkcə 2013-cü ildə adıçəkilən ASC-yə 25 milyon manat vəsait yönəlib. Onun 10,3 milyonu Bakı şəhərində qazanxanalarda, yaşayış evlərində və sosial obyektlərdə istilik təchizatı sistemlərinin təmir-bərpasına, 10 milyon manatı isə "2011-2013-cü illərdə Bakı və onun qəsəbələrinin sosial- iqtisadi inkişafına dair Dövlət Proqramı"nda nəzərdə tutulmuş təchizatın yaxşılaşdırılması tədbirlərinə, 4,7 milyon manatı Xətai rayonu, Əhmədli yaşayış məntəqələrində 10 ədəd istilik paylayıcı məntəqələrinin yenidən qurularaq məhəllə qazanxanalarına çevrilməsinə xərclənib.

Ümumiyyətlə, 2011-2016-cı illərdə şirkət dövlət büdcəsindən 123 milyon manat subsidiya vəsait əldə edib.

Sonrakı illərdə də "Azəristiliktəchizat"a dövlət ayırmaları davam edib.

Üstəlik, nəzərə alsaq ki, istilik tarifləri də ötən illərdə bahalaşıb, o zaman bu ASC-nin zərərinin ötən ilin rəqəmlərinə əsasən 100 milyon manata yaxınlaşması təəccüb, hətta heyrət doğurur! Şübhə qalmır ki, "Azəristiliktəchizat"ın kemiş rəhbərliyinin fəaliyyəti şəffaf olmayıb, bu qurumun vəsaitləri təyinatı üzrə xərclənməyib. Bu səbəbdən də Y.Həsənov əvəzlənməsəydi, sözügedən ASC-nin növbəti illərdəki zərəri daha da yüksələcəkdi.

Ekspertlər hesab edirlər ki, "Azəristiliktəchizat"ın dövlətdən ayırdığı dotasiyalara, yardımlara, eləcə də istilik tarifinin ötən illərdə bahalaşmasına baxmayaraq 100 milyon manata yaxın zərər etməsi ciddi araşdırılmalıdır. Şirkətin sabiq rəhbərliyinin fəaliyyəti təftiş olunmalı, keçmiş sədrin sərəncamında olmuş on milyonlarla manatın aqibətinə aydınlıq gətirilməlidir.

Yeri gəlmişkən: "Azəristiliktəchizat"ın şok zərəri açıqlanandan sonra belə bir iddia ortaya atılıb ki, bu ilin payızında istilik tarifləri yüksələ bilər. Hətta qurumun bu məqsədlə Tarif Şurasına müraciət etdiyi də deyilir. Lakin ASC-nin mətbuat xidmətinin rəhbəri Elvin Basqallı iki gün öncə bununla bağlı yerli KİV-ə açıqlamasında bildirib ki, istilik enerjisi tarifi dövlət tərəfindən tənzimlənir və onda olan məlumata görə, "Azəristiliktəchizat" tərəfindən Tarif Şurasına qiymət artımı ilə bağlı hər hansı müraciət ünvanlanmayıb.

Hətta belə bir müraciət olsa və müsbət cavablandırılsa belə, çətin ki, istilik tarifinin bahalaşdırılması "Azəristiliktəchizat"ın 100 milyon manata yaxınlaşmış zərərini aradan qaldırmaq üçün kifayət etsin. Bu qurumun düşdüyü vəziyyətdən çıxış yolu şəffaf fəaliyyət göstərməsi, eyni zamanda keçmiş rəhbərliyin yanlışlıqlarının bir daha təkrarlanmamasıdır.

Və bir də, yuxarıda da vurğuladığımız kimi, adıçəkilən ASC-nin sabiq sədrinin fəaliyyət dövrü təftişə ciddi ehtiyac duyur. Daha da konkretləşdirsək, dövlətdən aldığı dotasiyalara, yardımlara rəğmən bir qurumun bu qədər zərər etməsinin səbəblərinə obyektiv şəkildə aydınlıq gətirilməsi vacibdir. Əks halda, tariflərin qaldırılması problemin köklü həllinə gətirib çıxarmayacaq...

***Toğrul Əliyev***

# Mərdan Camalov yola salınır

## Zərdab rayon İcra Hakimiyyətinin başçısı vəzifəsini itirə bilər?

***Son günlər Azərbaycanda aparılan kadr islahatları çərçivəsində müəyyən vəzifəli şəxslərin, o cümlədən, bir çox rayon və şəhər İcra Hakimiyyəti başçısının öz postu ilə vidalaşacağı barədə duyumlar, iddialar artıb. Belə duyumların, iddiaların həqiqəti nə qədər əks etdirdiyi bəlli deyil, onların reallaşıb-reallaşmayacağını söyləmək də mümkünsüzdür. Lakin fakt odur ki, yaxın vaxtlarda oturduqları kreslonu itirmə riski yüksək olan məmurlardan bəhs edilməyə başlanılıb. Biz də bu sayımızdan etibarən sözügedən vəzifə sahibləri barədə danışacağıq.***



Yerli KİV-in bir müddətdən bəridir yazdığına görə, Azərbaycanda yaxın vaxtlarda tutduğu postdan azad ediləcək rayon rəhbərlərindən biri Zərdab Rayon İcra Hakimiyyətinin (RİH) başçısı Mərdan Camalovdur. İddia edilir ki, rayonda Mərdan müəllimin yaxın vaxtlarda vəzifəsindən uzaqlaşdırılacağına dair məlumatlar bir müddətdir yayılıb.

Qeyd edək ki, hələ ötən il sözügedən RİH-də hüquq-mühafizə orqanlarının əməliyyat keçirməsinə dair iddialar ortaya atılmışdı. Lakin məsələ ilə bağlı açıqlama verən Camalov bunu yalanlamışdı. "Heç kim özündən Amerika çıxarmasın. İcra hakimiyyətində heç kim həbs edilməyib. Sadəcə lazım olan müəyyən məsələlərlə bağlı 1 ay əvvəl işdən çıxardığım icra nümayəndəsi və bələdiyyə sədri saxlanılıblar. Bu barədə də KİV-lərə məlumat veriləcək. O yoldaşlar nə icra hakimiyyətinə gəlib əməliyyat keçirib, nə də buradan kimsə həbs olunub" deyən başçı yerli İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin müdiri Sahid Abuseyid oğlu Əhmədovdan izahat alındığını və onun həbs edilmədiyini bildirmişdi: "Nəsə lazım olub deyə, onu çağırmışdılar. Hazırda memar da, mən də öz yerimdəyik".

Göründüyü kimi, həmin vaxt belə iddiaların ortaya çıxması üçün əsaslar olub. Yəni Zərdabın yerli məmurları xeyli "həyəcanlı" anlar yaşayıblar.

Üstəlik, bu baş verənlər rayonda kimsəni təəccübləndirməmişdi. Çünki Zərdab yerli əhalinin rayon İcra Hakimiyyətindən, başda icra başçısının özü olmaqla ayrı-ayrı vəzifəli şəxslərdən ən çox şikayətlərin edildiyi bölgələrdəndir. Ölkə mətbuatının, internet mediasının kiçik monitorinqindən bu, aydın görünür. Məsələn, bir müddət öncə rayon sakini, II-ci qrup Qarabağ qazisi Osmanov Ziya Şahmurad oğlu yerli mətbuata müraciət edərək bildirmişdi ki, Zərdab rayon, "4 yol" ərazisi, Zərdab-Mollakənd yolunun sol hissəsində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq məqsədilə, 0,003 ha (30kv.metr) torpaq sahəsi üzərində Əmlak Məsələləri üzrə Dövlət Komitəsi yanında Dövlət Reyestri Xidməti tərəfindən 22.06.2020-ci il tarixində çıxarış əldə edərək, həmin torpaq üzərində mülkiyyət hüququ əldə edib. Və həmin torpaq üzərində tikinti islərinin aparılması işlərini isə Zərdab rayon İcra Hakimiyyətinin Memarlıq və Tikinti şöbəsi ilə də razılaşdırılıb. Lakin əlində qanuni sənədlərinin olmasına baxmayaraq Zərdab rayon icra hakimiyyətinin başçısı Mərdan Camalov və icra hakimiyyətinin Memarlıq və Tikinti şöbəsinin müdiri ona məxsusi olan ərazidə tikinti işlərinin aparmasına imkan vermir. Belə ki, icra hakimiyyətindən ona bildiriblər ki, həmin ərazi avtobus və taksi fəaliyyəti üçün nəzərdə tutulduğundan, orda tikinti işlərinin aparılması qeyri mümkündür. Bu baxımdan da Z.Osmanov ölkə rəhbərliyindən kömək istəmişdi.

Zərdab RİH sözügedən şikayətin əsassız olduğuna dair açıqlama versə də, qarşı tərəf bunun heç də belə olmadığını iddia eləməkdə davam etmişdi.

Yenə bir müddət öncə yerli mediada yazılan şikayətdə iddia edilirdi ki, Zərdabda şəhid Sərdar Əhədovun atasının torpağını əlindən alıblar. Yazılanlara görə, 1-ci Qarabağ müharibəsində torpaq uğrunda qəhrəmancasına şəhid olan S. Əhədovun indi atasına bir qarış torpağı çox görürlər. Şəhid atasına qanuni, sənədli verilmiş 10 hektar torpaq sahəsi indi zəbt olunub. Şəhid atasının mediaya dediyinə görə, Zərdab rayonunun icra başçısı Mərdan Camalovun sifarişi ilə torpağı əlindən alıblar. "Həmin torpaq sahəsində əkdiyim taxılı və yoncanı mal-qaraya otardıb tələf etdilər. Mal-qara sahibləri mənə dedilər ki, buna icazəni icra başçısı verib. Hansı ki, həmin torpaq sahəsini qanuni qaydada bələdiyyədən müqavilə ilə 25 illik icarəyə götürmüşəm. Əlimdə reyestr çıxarışı və icarə müqaviləsi var"- şikayətçi bildirib.

Xatırladaq ki, nəhəng biznesə və gözqamaşdırıcı sərvətə sahib olduğu deyilən 64 yaşlı M.Camalov 2005-2019-cu illərdə Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb. Bundan sonra, 2019-cu ilin noyabrında Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib. Yəni o bu postda iki ildən bir qədər artıqdır ki, çalışır. Bununla belə, yerli əhali arasında icra başçısının ona göstərilən etimadı doğrultmadığı fikri geniş yayılıb. Yuxarı dairələrin də zərdablıların da, rayon rəhbərliyinin fəaliyyətindən ciddi narazılıq etdiyi barədə məlumatlı olduğunu düşünən sakinlər onun indiki kreslosunda çox otura bilməyəcəyi qənaətindədirlər.

Lakin buna şübhə ilə yanaşanlar da var. Beləlləri icra başçısının öz "səmərəli fəaliyyətinə görə" təxminən iki il öncə "Şöhrət" ordeni ilə təltif edilməsini xatırladırlar.

***Murad İbrahimov***



# 136 abituriyentin imtahan nəticələrinə dəyişiklik edildi

***Mayın 21-22-də və iyunun 4-5-də keçirilmiş I-IV qruplar üzrə qəbul imtahanlarının nəticələri ilə bağlı təşkil edilmiş Apellyasiya Komissiyasının nəticələri açıqlanıb.***

Dövlət İmtahan Mərkəzindən "Unikal"a verilən məlumata görə, həmin qəbul imtahanlarının nəticələri ilə bağlı təşkil edilmiş Apellyasiya Komissiyasına 971 abituriyent ərizə ilə müraciət edib.

Bu ərizələrdə ümumilikdə 1540 yazı işi (tapşırıq) üzrə qiymətlərin araşdırılması üçün müraciət olunub.

Qeyd edək ki, bu imtahanlarda abituriyentlərin ümumilikdə 732861 yazı işi yoxlanılıb. Apellyasiya üçün edilən müraciətlər bütün tapşırıqların cəmi 0.21%-ni təşkil edib.

Daxil olan müraciətlər araşdırılıb və abituriyentlərin apellyasiya ərizələrindəki istəklərinə uyğun olaraq 265 nəfərlə videogörüntü ("Zoom" proqramından istifadə etməklə) vasitəsilə, 706 (onlardan 35-ə yaxın abituriyent dəfələrlə edilən zənglərə cavab verməyib) nəfərlə isə telefonla əlaqə saxlanılaraq iş üzrə birlikdə müzakirə aparılıb. Apellyasiyaya müraciət edənlərdən 136 abituriyentin (bütün imtahan verənlərin 0,17%-i) cəmi 142 tapşırıq (bütün tapşırıqların 0,02%-i) üzrə qiymətində dəyişiklik edilib, digər iddialarla bağlı isə abituriyentlərə yazı işinin yerinə yetirilməsində yol verdikləri səhvlər izah edilib. 14 işdə edilmiş düzəlişlər imtahan verənin tapşırığın həllini (və ya cavabını) başqa tapşırıq üçün ayrılmış yerdə yazması ilə bağlı meydana gələn hallara aiddir.

Əlavə olaraq bildiririk ki, 5 iyun 2022-ci il tarixində I ixtisas qrupu üzrə keçirilən imtahanda riyaziyyat fənninə aid 1 (bir) tapşırığın şərtində qeyri-korrektliyə yol verildiyi aşkar olunub. Buna görə də Apellyasiya Komissiyasının üzvləri tərəfindən həmin test tapşırığının komissiyaya müraciət edib-etməməsindən asılı olmayaraq abituriyentlərin xeyrinə, onlar tərəfindən düzgün cavablandırılmış kimi götürülməsi qərara alınıb.

Abituriyentlərin nəzərinə çatdırırıq ki, qeyd olunan dəyişikliklər artıq onların imtahan nəticələri ilə əlaqədar yaradılmış səhifələrində öz əksini tapıb. Ona görə də abituriyentlərə səhifələrinə daxil olaraq apellyasiyanın nəticələri ilə tanış olmaq tövsiyə olunur.

Xatırladaq ki, bu imtahanlarda 81429 abituriyent iştirak edib və onların ümumilikdə 732861 tapşırıq üzrə yazı işi yoxlanılıb.

# Minə yaxın bağçada yoxlama keçirilib

***Ölkə ərazisində fəaliyyət göstərən 1600-dən çox məktəbəqədər təhsil müəssisəsindən 1000-ə yaxınında Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi tərəfindən müvafiq yoxlama-nəzarət tədbirləri keçirilərək inzibati intizam tədbirləri görülüb.***

"Unikal" xəbər verir ki, bunu Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Aparat rəhbəri Elxan Mikayılov deyib.

Aparat rəhbəri bildirib ki, nəticələr haqqında məlumatlar Təhsil Nazirliyinə təqdim olunub: "Gələcək perspektivdə ölkə qarşısında duran əsas çağırışlardan biri, xüsusilə yeniyetmələrin, şagirdlərin düzgün qidalanmasının təşviq edilməsi, qida təhlükəsizliyi məsələlərinə diqqətin artırılmasından ibarətdir".



## Kamran Əliyev 3 rayondan olan vətəndaşları qəbul edəcək

***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq Baş prokuror Kamran Əliyev cari il iyulun 19-da saat 10:00-da Salyan rayon prokurorluğunun inzibati binasında Salyan, Neftçala və Biləsuvar rayon sakinlərinin qəbulunu keçirəcək.***

"Unikal" xəbər verir ki, vətəndaşların qəbulla bağlı qeydiyyatı və Salyan rayonuna gəlmələrinin təşkili müvafiq rayon prokurorları tərəfindən həyata keçiriləcəkdir.

Vətəndaşlar yaşadıqları ərazi üzrə rayon prokurorluqlarına yazılı və ya şifahi müraciət etməklə yanaşı, Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin (012) 361-14-07 nömrəli telefonu və contact@prosecutor.gov.az elektron poçt ünvanı, eləcə də prokurorluğun sosial şəbəkələrdəki səhifələri (instagram, facebook, telegram, twitter) vasitəsilə də qəbula yazıla bilərlər.

## Tahir Əmiraslanov kitablarını yandırmasının səbəbini açıqladı

***Azərbaycan Milli Kulinariya Mərkəzinin keçmiş direktoru Tahir Əmiraslanovun kitablarını yandırması ilə bağlı paylaşımı müzakirələrə səbəb olub. Onun paylaşımına yüzlərlə şərh gəlib.***

İllərdir yığdığı kulinariyaya aid yüzlərlə kitabı yandırıb görüntülərini öz feysbuk hesabında paylaşan eks-direktor bunun səbəblərini belə izah edib: "Dostlar, bəzi kitablarımı yandırmağımla bağlı yüzlərlə rəy gəlir. Müxtəlif yozumları qarşılamaq üçün səbəbini açıqlayıram:

1. İnsanlarımızın kitab oxumamalarına və bununla ölkəmizi geri çəkmələrinə etiraz edirəm.
2. "National Geographic" kimi böyük bir resursda mətbəximiz təhrif edilir. Mətbəxi qorumaq üçün yaradılmış qurum bunu təkzib etmir, cavablandırmır. Buna etirazımı bildirirəm. Bunları yozmaq lazım deyil".

Xatırladaq ki, Tahir Əmiraslanov paylaşdığı fotoya bu şərhi vermişdi: "Hər dəfə əsəbiləşəndə kitabların və arxivin bir hissəsini töküb yandırıram. Həm əsəblərim sakitləşir, həm ev boşalır, həm ağcaqanadlar uzaqlaşır. Kitablar, diplomlar və sairə yaxşı yanır. Mən bunları Milli Mətbəx Muzeyinə qoymaq üçün toplayırdım. Ölkəmə lazım olmayan şeylərin üstündə niyə əsməliyəm ki?".

## Məktəb bufetlərində yoxlama aparılacaq

***"Gələn ildən məktəblərin bufetlərinin yoxlanılması planlaşdırılır".***

"Unikal" xəbər verir ki, bunu təhsil nazirinin müşaviri Rüstəm Ağayev deyib.

O bildirib ki, sağlam qidalanma ilə bağlı valideynlərlə də mütəmadi olaraq maarifləndirici işlər aparılmalıdır:

"Hazırda 1 milyon 600 min şagird var. Onlar yalnız vaxtlarının bir hissəsini məktəbdə keçirirlər. Hesab edirəm ki, uşaqların sağlam qidalanması ilə bağlı valideynlərlə də sıx işlər görülməlidir".

# Qarabağa qoyunçuluq və arıçılıq təsərrüfatlarının köçü başa çatır

***Azərbaycanın işğaldan azad edilmiş ərazilərində yerləşən yaylaqlara qoyunçuluq və arıçılıq təsərrüfatlarının köçü başa çatmaq üzrədir.***



Bu barədə "Unikal"a Kənd Təsərrüfatı Nazirliyindən (KTN) bildirilib. Məlumata görə, dövlət qurumları ilə razılaşdırılmış vahid reqlamentə əsasən, azad edilmiş bölgələrdən olan, təsərrüfatında ən azı 200 baş xırdabuynuzlu heyvan və Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmiş 40 arı ailəsi olan fermer mövsüm dövründə öz təsərrüfatını azad olunmuş ərazilərdəki yaylaqlara köçürmək üçün elektron müraciət edə bilər. Yaylaqlara təsərrüfatdakı xırdabuynuzlu heyvanların 10 %-i qədər iribuynuzlu heyvan aparmağa da icazə verilib. Təsərrüfatın rəhbəri özü ilə şəxsi seçimi əsasında müəyyən etdiyi maksimum 9 köməkçi aparmaq hüququna malikdir.

Köçdən əvvəl müraciətləri təsdiqlənmiş fermerlərə Minatəmizləmə Agentliyinin Göygöldəki Təlim Mərkəzində müvafiq təhlükəsizlik və davranış qaydaları ilə bağlı təlim keçirilib. Azad olunmuş ərazilərdə təhlükəsizlik qaydaları ilə tanış olduqlarına dair sertifikat almış fermerlərə öz təsərrüfatlarını müəyyən olunmuş müddət ərzində yaylaqlara köçürməyə icazə verilib.

Yaylaqlara köçlə bağlı elektron müraciət üçün iki ay vaxt ayrılıb, müraciətlərin təsdiqlənməsi və adların portala daxil edilməsi müddəti iyun ayının əvvəllərində başa çatıb.

İyulun 1-nə qədər azad olunmuş ərazilərdəki yaylaqlara ümumilikdə 329 166 xırdabuynuzlu, 23 794 iribuynuzlu, 831 digər heyvanın (at,it, eşşək və s.) köçürülməsi təmin edilib. Ümumilikdə Kəlbəcər və Laçın yaylaqlarına 940 qoyunçuluq təsərrüfatı köç edib.

Bu il Şərqi Zəngəzur və Qarabağ iqtisadi zonalarındakı yaylaqlara 1 101 arıçı tərəfindən 61 045 arı ailəsi aparılıb.

Ümumilikdə 2022-ci il yaylaq mövsümündə 17 406 şəxsin fermer təsərrüfatlarının tərkibində azad olunmuş ərazilərdəki yaylaqlara getməsinə icazə verilib.

# "Məktəblilərin qida bələdçiləri"nə həsr olunan brifinq keçirildi

***İyulun 7-də Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) UNICEF və Təhsil Nazirliyinin birgə əməkdaşlığı çərçivəsində reallaşdırdığı "Məktəblilərin qida bələdçiləri" pilot layihəsinin yekun tədbiri keçirilib. Tədbirdə layihənin yekunlarına dair hesabat media nümayəndələrinin diqqətinə çatdırılıb.***

"Unikal" xəbər verir ki, layihə çərçivəsində məktəblilər arasında sağlam qidalanmanın təşviqi, qida təhlükəsizliyi anlayışının təbliğ edilməsi və şagirdlərə qida təhlükəsizliyi vərdişlərinin aşılanması məqsədi ilə maarifləndirmə tədbirləri təşkil olunub. Belə ki, ilkin mərhələdə AQTİ mütəxəssisləri tərəfindən 30 nəfərə 12 mövzudan ibarət onlayn formada seminar keçilib.

Layihənin reqlamentinə əsasən, imtahanı uğurla başa vuranlar "Məktəblilərin Qida Bələdçiləri" nişanı ilə təltif olunub və həmin şagirdlər məktəblərdəki bufetlərin fəaliyyəti, qida təhlükəsizliyi və sanitar qaydalara əməl olunmasına dair ictimai nəzarəti həyata keçiriblər.



Daha sonra imtahanı uğurla başa vuran iştirakçıların təmsil olunduqları məktəblərin şagirdləri arasında sorğu keçirilib. Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonunda 5 və 9-cu sinif şagirdləri arasında keçirilən sorğuda ümumilikdə 16 məktəbdən 1600 şagird iştirak edib. Anket formasında tərtib olunmuş sorğularda qida təhlükəsizliyi haqqında ümumi anlayışlar, sağlam qidalanma vərdişləri və qaydaları, gigiyenik tələblərə riayət olunması, düzgün maye qəbulu, fastfud yeməkləri və zərərli alışqanlıqlara münasibət, və s. istiqamətlər yer alıb.

Sorğunun nəticəsinə əsasən, layihədən əvvəl və sonra aparılan testlər şagirdlərin qida vərdişlərindəki dəyişiklikləri əks etdirib. Belə ki, layihədən əvvəl qida təhlükəsizliyi anlayışı haqqında məktəblilərin 72%-i məlumatlı olduğu halda, layihədən sonra bu rəqəm 97%-ə çatıb. Layihənin reallaşmasından sonra AQTA-nın 1003 Çağrı Mərkəzi ilə bağlı məlumatı olan şagirdlərin sayı da artıb. Əvvəl Çağrı Mərkəzi ilə bağlı məlumatı olan şagirdlərin sayı 51% təşkil edirdisə, layihədən sonra bu rəqəm 95%-ə çatıb.

Səhər yeməyi uşaqların fiziki və zehni qabiliyyətinə, eləcə də akademik göstəricilərinə kifayət qədər təsir göstərir. Əgər layihədən əvvəl sorğuda iştirak edən şagirdlərin 20%-i səhər yeməyi yemədiyini bildirmişdisə, layihədən sonra bu göstərici 7%-ə düşüb.

Sorğuda iştirak edən uşaqların 31%-i həftə ərzində heç balıq yemədiyini bildirib. Süd məhsulları qəbul etməyən uşaqlar isə 15% təşkil edib. Sorğudan sonra bu göstəricilər müvafiq olaraq 18% və 5%-ə qədər azalıb.

Testin nəticəsinə görə, layihədən sonra həftədə 5 gündən çox şəkərli içki qəbul edən məktəblilərin sayı isə 25%-dən 5%-ə düşüb. Layihədən sonra həftədə beş gündən çox şirniyyat yeyən şagirdlərin sayı 13%-ə, çips yeyən uşaqların sayı isə 4%-ə qədər azalıb.

Xatırladaq ki, pilot layihə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün nəzərdə tutulmuş Dövlət Proqramı", eləcə də UNICEF-in Azərbaycanda 2021-2022-ci illər üçün Səhiyyə və Qidalanma Proqramının icrası ilə əlaqədar olaraq, əhalinin həyat və sağlamlığının qorunması üçün qida təhlükəsizliyinin daha səmərəli təşkilinin təmin edilməsi istiqamətində maarifləndirilmə işlərinin genişləndirilməsi və daha da təkmilləşdirilməsi məqsədilə reallaşdırılıb.

**6.3.5. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük “Vətən Müharibəsi”ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması;**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Müharibə bitsə də, düşmənin qoyduğu vəhşi izlər dünyaya çatdırılmalıdır

## Kamilə Əliyeva: “Biz işğaldan azad etdiyimiz torpaqlarımızı dirçəltməklə yanaşı bu vəhşiliyi dünyaya car çəkməkdə davam etməliyik”.

***Azərbaycanın Qarabağda haqq savaşında zəfər çalması ilə yanaşı düşmənin mənfur siması da hər kəsə məlum oldu. 30 il müddətində işğal altında saxladığı torpaqlarımızda hər cür vandallığı həyata keçirən Ermənistan dövləti həm də bu torpaqların gerçək sahibinin özləri olmadığını təsdiqləmiş oldu. Artıq işğaldan azad edilmiş torpaqlarımızda tədricən kəndlərin, şəhərlərin bərpasına başlanılıb. Düşmənin viran qoyduğu yurd yerlərimiz gül-gülüstanlığa çevrilir. Bununla yanaşı Azərbaycan dövləti işğal altında saxlanılan şəhər və kəndlərimizin vəziyyətini görmək üçün dünyanı Qarabağa səsləyir. Bu günədək xeyli sayda beynəlxalq təşkilatlar Qarabağa səfər edərək erməni barbarlığının canlı şahidi olublar. Artıq işğaldan azad etdiyimiz torpaqlarımız Qarabağla bağlı həqiqətlərin canlı tablosuna çevrilib. Ermənistan tərəfindən insanlıq əleyhinə cinayətlərin izi açılır, kütləvi məzarlıqlar onların bəşəriyyət və insanlıq üçün nə qədər təhlükəli olduğunun şahidi olur.***

Kəlbəcər rayonunun Ağdaban və Başlıbel kəndlərində mülki əhaliyə qarşı törətdiyi kütləvi qətliamlar düşmənin insanlıq əleyhinə törətdiyi ən qanlı cinayətlərdəndir. Ağdaban faciəsi zamanı bir gecədə 130 ev yandırılıb, 779 dinc sakin müxtəlif işgəncələrə məruz qoyulub. Onlardan 67 nəfəri xüsusi amansızlıqla qətlə yetirilib. Erməni qaniçənlərindən xilas olmaq üçün dağlara sığınan 62 Başlıbel sakininin faciəvi sonluğu isə hər kəsə bəllidir. Başlıbel qətliamının şahidlərinin söylədikləri Kəlbəcərin işğaldan azad olunması ilə bir daha sübut olunmuş oldu. 113 gün çəkən mühasirə zamanı dəfələrlə erməni silahlılarının hücumuna məruz qalan dinc sakinlərdən 14 nəfəri girov götürülüb, 18 nəfəri qətlə yetirilib, 1 nəfəri itkin düşüb, 29 nəfər isə yalnız gecələr gizli dağ yolları ilə mühasirədən çıxa bilib. Ermənistan ordusunun Başlıbel kəndində köməksiz vəziyyətdə kahalara sığınmış əliyalın insanlara qarşı törətdiyi vəhşiliklər, evlərin yandırılması və talan edilməsi, bir gecədə 4 ailənin bütün üzvlərinin qətlə yetirilməsi Qarabağ müharibəsi dövrünün ən dəhşətli hadisələrindəndir.



Deputat Kamilə Əliyeva “Unikal”a deyib ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük müharibədə qazandığımız qələbə bizi tarixi- mədəni irsimizə, dini abidələrimizə də qovuşdurub. Həmsöhbətimiz deyir ki, 30 illik işğal dövründə mənfur düşmən evlərimizi, tarixi abidələrimizi dağıdaraq dini abidələrimizi təhqir ediblər: “Ermənilərin məqsədi heç də işğalla bu yerlərdə yaşamaq yox, dağıtmaq, viran qoymaq, yağmalamaq, talan etmək olub. Bizə məxsus nə varsa hamısını yerlə-yeksan ediblər. Onlar insanlıq əleyhinə qarşı da vandal əməllər törədiblər. Uşaq-qadın bilmədən dinc insanlara qarşı vandallıq törədiblər. Döyüş meydanında gücünü göstərə bilməyən düşmən öz gücünü mülki əhalinin üstündə sınadı. Azərbaycan ordusu isə bunun qisasını döyüş meydanında aldı. Bu vəhşilikləri prezidentimiz işğaldan azad edilmiş torpaqlarımıza səfər edərək dünyaya göstərdi. Təhqir edilmiş məscidlərimizi ziyarət edən prezidentimiz bu vəhşilikləri dünyaya car çəkdi. Bu gün xaricdən gələn qonaqlar erməni vəhşiliyini öz gözləri ilə görürlər. Artıq dünya ictimaiyyəti Ermənistanı vəhşi, işğalçı dövlət kimi tanıyır. Bu günlərdə Milli Məclisin Sosial siyasət və Səhiyyə Komitələrinin Şuşada iclasları keçirildi. Biz Şuşaya gedərkən yol boyu erməni vəhşiliyinin şahidi olduq. Sanki prezidentimizin dili ilə desək bu yerlərdən vəhşi bir qəbilə keçib. Bu gün prezidentimizin başçılığı ilə o torpaqlara yeni nəfəs verilir. Amma biz işğaldan azad etdiyimiz torpaqlarımızı dirçəltməklə yanaşı bu vəhşiliyi dünyaya car çəkməkdə davam etməliyik”.

Qeyd edək ki, ötən ay xarici ölkələrdən olan bir qrup tanınmış səyyah işğaldan azad olunmuş Azərbaycan torpaqlarına səfər edib. Səfərdə 10 ölkədən - Danimarka, Almaniya, ABŞ, Sinqapur, Ukrayna, Türkiyə, İspaniya, Macarıstan, Hindistan və İsveçdən 24 dünyaca tanınmış səyyah iştirak edib. Onlar Xocavənd rayonunda ”Azıx mağarası”na baxdıqdan sonra nümayəndə heyəti Şuşa şəhərinə səfər ediblər. Həmçinin ermənilərin xarabalığa çevirdiyi Ağdam şəhərinin qalıqlarına və Azərbaycan dövlətinin apardığı yenidənqurma işləri ilə tanış olublar.

Məlumat üçün bildirək ki, Azərbaycan Respublikasının işğal altında olmuş ərazilərində fəaliyyət göstərmiş qanunsuz erməni separatçı rejiminin silahlı birləşmələri və Ermənistan Respublikasının Silahlı Qüvvələri tərəfindən XX əsrin sonlarında yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, habelə müharibə və digər cinayətlərin araşdırılması məqsədi ilə Azərbaycan Respublikası Baş prokurorunun, Milli Təhlükəsizlik və Daxili İşlər nazirlərinin 18 dekabr 2003-cü il tarixli birgə əmri ilə istintaq-əməliyyat qrupu yaradılıb. Əvvəlki dövrdən fərqli olaraq, cinayət işi Respublika Hərbi Prokurorluğunda icraata götürüldükdən sonra, şəxsən ədliyyə general-leytenantı Xanlar Vəliyev tərəfindən yeni vahid istintaq-əməliyyat planı tərtib olunub və işin mahiyyəti üzrə, yəni genosid, deportasiya, işgəncə və sair cinayət faktlarının araşdırılması məqsədi ilə iş üzrə beş əsas istiqamət müəyyən edilib.

Bunlar a) Azərbaycan xalqına qarşı soyqırımı;

b) əsir düşmüş və girov götürülmüş şəxslərə qarşı işgəncə;

c) terror;

ç) dövlətə və vətəndaşlara vurulmuş ziyan;

d) müasir dövrdə milli ədavət və düşmənçilik niyyətilə törədilmiş xüsusilə ağır cinayətlər kimi istiqamətlərdir.

Həmin cinayət işinin istintaqının sistematik olaraq və peşəkarlıqla aparılmasını təmin etmək məqsədilə Xanlar Vəliyevin təşəbbüsü ilə 30 mart 2009-cu il tarixində Respublika Hərbi Prokurorluğunda Xüsusi istintaq şöbəsi yaradılıb.

Hazırda qeyd olunan beş əsas istiqamətlər üzrə qanunsuz erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı Xocalı şəhəri, Xocavənd rayonunun Qaradağlı kəndi, Xankəndi şəhərinin Kərkicahan qəsəbəsi, Qazax rayonunun Bağanıs-Ayrım kəndi, Əsgəran rayonunun Meşəli kəndi və sair yaşayış məntəqələrində törədilmiş soyqırımlar, əsir düşmüş və girov götürülmüş şəxslərə qarşı törədilmiş işgəncə, habelə ayrı-ayrı epizodlar üzrə Şuşa, Xocavənd, Əsgəran, Ağdərə, Ağdam, Goranboy və digər rayonlarda törədilmiş cinayətlər peşəkarlıqla araşdırılır, həmin cinayətlərlə bağlı beynəlxalq məhkəmələrə vəsatətlər verilir. Bütün bu faktlar düşmənin insanlıq əleyhinə törətdiyi cinayətlərin bariz nümunəsidir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Azərbaycanın müflis olmuş milyonçuları - SİYAHI

***Azərbaycan milyonçularına görə dünya reytinqinə düşmüş ölkələrdəndir. Ölkənin milyonçuları onun güclü iqtisadiyyatının göstəricilərindəndir. Hazırda ölkədə və xaricdə yaşayan xeyli azərbaycanlı milyonçu var. Lakin onlardan bəziləri zamanla müxtəlif səbəblərdən müflis olub.***

”Unikal” Azərbaycanın müflis olmuş milyonçularının siyahısını təqdim edir:

Hacı Zeynalabdin Tağıyev 1830-cu illərdə Bakıda kasıb başmaqçı ailəsində dünyaya gəlib. Sonradan milyonçuya çevrilən Tağıyev müsəlman Şərqində ilk qızlar məktəbinin yaradıcısı idi. O, 1878-ci ildə neft quyusunun fontan vurmasından sonra Azərbaycanın məşhur milyonçusuna çevrilir. Bundan sonra o, enerji, balıqçılıq və digər sahələrdə də biznes qurur. Ölkədə saysız-hesabsız xeyriyyə əməlləri ilə tanınan milyonçunun bütün varidatı Sovet Rusiyasının 28 aprel 1920-ci ildə Azərbaycanı işğal etməsi ilə alınır. Ona isə yalnız Mərdəkandakı bağ evi qalır. Hacı Zeynalabdin Tağıyev 1924-cü il sentyabrın 1-də Bakıda vəfat edib.

Azərbaycanın neft maqnatı, xeyriyyəçi və ictimai xadim Şəmsi Əsədullayev 1841-ci ildə Bakının Əmircan kəndində anadan olub. O, neftin Rusiyaya daşınmasında buxar gəmisindən ilk dəfə istifadə edən milyonçu idi. 1860-cı ildən başlayaraq 15 il müddətinə milyonçu olan Əsədullayevin adı həmişə Nobel qardaşlarının adı ilə yanaşı çəkilib. Onun bütün mülkləri 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra kommunist rejimi tərəfindən milliləşdirilir. Bundan sonra məşhur milyonçu müflis olur. O, 1913-cü il 21 apreldə Yaltada 72 yaşında vəfat edib, meyiti sonradan Bakıya gətirilərək dəfn olunub.

20-21-ci əsrin tanınmış milyonerlərindən AST-Telman kimi tanınan Telman İsmayılov 1956-cı ildə Göyçayda anadan olub. Azərbaycan, Türkiyə və Rusiyada biznes quran milyarder dünya ölkələrinin prezidentləri səviyyəsində tanınırdı. Telman İsmayılovun müflisləşmə proseduru 2016-cı ilin avqust ayında başlayıb. Qərar iş adamının 17,4 milyard rubl borclu olduğu ”VTB Bank”ın iddia ərizəsi əsasında verilib. Bundan sonra o, həbs edilib. Müflis elan olunan milyarder siyasi sığınacaq əldə edərək həbsdən çıxmağı bacarıb.

”Hafka” ləqəbi ilə tanınan əslən Naxçıvandan olan 58 yaşlı Hafiz Məmmədov ”Bakı” futbol klubunun prezidenti, AFFA İcraiyyə Komitəsinin üzvü, ”Baghlan Group FZCO”nun prezidenti, eləcə də bir çox şəxsi biznesin sahibi idi. O, Naxçıvanda kasıb ailədə anadan olub. Ölkədə və xaricdə qurduğu biznes hesabına məşhur milyonerə çevrilir. İş adamı özü bildirib ki, onun müflisləşməsi 2013-cü ildə başlayıb. Amma o, bunu 3 il sonra bilib ki, onda da çox gec olub. Bundan sonra ”Hafka”nın milyonlarla borcu yaranıb. O, hazırda Bakıdakı milyonçular məhəlləsində yaşasa da, rəsmən müflis elan olunub.

Rusiyanın, xüsusilə Sankt-Peterburq şəhərinin qida sahəsində ən böyük şirkətlərindən sayılan ”İntertorq” şirkətinin və ”Spar” ərzaq mağazalar şəbəkəsinin yerli franşizasının həmsahibi olan Allahverdi Abdullayev də yeni dövrün milyonçularından idi. Onun qardaşı - milyarder Müşviq Abdullayev ötən illərdə 500-dən çox mağazasının bağlanmasından sonra müflis olur. Allahverdi Abdullayev isə 2021-ci ildə ”Sberbank”dan 8 milyard rubl (107 milyon dollar) vəsaiti oğurlamaqda təqsirləndirilərək həbs edilib. Bunlardan başqa, əvvəllər vəzifəsindən sui-istifadə edərək ”milyonçu” olan bir çox məmurun mülkləri dövlət tərəfindən müsadirə olunub. Onların çoxu hazırda həbsdədir.

***Ağarza Elçinoğlu***



## Jurnalistlərin təhlükəsizliyi vacibdir - Deputatdan çağırış

***"Jurnalistlərin təhlükəsizliyi məsələsi həlledicidir. Məhz bu mövzuda mühüm sənədlər BMT Təhlükəsizlik Şurasının 1738 (2006) və 2222 (2015) saylı qətnamələridir ki, bu qətnamələrə əsasən silahlı münaqişələrdə iştirak edən jurnalistlər mülki şəxslər kimi təsnif edilir. Onlara mülki şəxslərə tətbiq edilən eyni müdafiə təmin edilir. Mülki şəxs statusuna mənfi təsir göstərən heç bir tədbir görmürlər".***

Bunu Milli Məclisin deputatı Ülviyyə Ağayeva İngiltərənin Birminhem şəhərində keçirilən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının (ATƏT PA) 29-cu illik sessiyasında çıxışı zamanı deyib. O qeyd edib ki, bu, ATƏT-ə üzv dövlətlər tərəfindən də ATƏT-in Milan Nazirlər Şurasının qərarında təsdiq edilib:

"Bu baxımdan, bütün jurnalistlərin, media mütəxəssislərinin və əlaqəli personalın maksimum ehtiyatlı davranması və onların münaqişə zonasında mülki şəxs statusuna xələl gətirəcək hər hansı hərəkətdən çəkinməsi mühüm əhəmiyyət kəsb edir.

Jurnalistlərin akkreditasiyası Helsinki Yekun Aktından başlayaraq, ATƏT-in öhdəliklərinə daxildir və bir iştirakçı dövlətdən olan jurnalistlərin digər dövlətdə öz peşələrini yerinə yetirmələri üçün təhlükəsiz iş şəraitinin təmin edilməsi mühüm mexanizmdir. Helsinki Yekun Aktında qeyd olunur ki, jurnalistlərin səyahətlərinin təşkili prosedurları, məsələn, təhlükəsizlik səbəbi ilə bağlanmış ərazilərin mövcudluğu ilə bağlı qaydalara riayət edilməlidir.

Xatırladaq ki, 2021-ci ilin iyununda baş vermiş mina partlayışı nəticəsində iki azərbaycanlı jurnalist və bir yerli icra hakimiyyətinin nümayəndəsi həlak olub, daha dörd mülki şəxs isə ağır yaralanıb. Bu faciəvi hadisə Azərbaycanın əvvəllər işğal olunmuş ərazilərindəki minalarla bağlı bütün dəqiq məlumatların təcili təqdim edilməsinin vacibliyini kəskin xatırladır. Üç onillik ərzində Ermənistan bu ərazilərə fərq qoymadan minalar yerləşdirərək, onları dünyanın ən çirklənmiş ərazilərindən birinə çevirib. Bu gün Ermənistan tərəfindən yerləşdirilmiş davamlı minalar dinc sakinləri, o cümlədən jurnalistləri öldürməkdə davam edir, məcburi köçkünlərin geri qayıtması üçün əlavə maneələr yaradır və genişmiqyaslı reabilitasiya və yenidənqurma işlərinə ciddi maneələr yaradır".

## Bakıda 20 avtobus gecikmə ilə hərəkət edir

***Bu gün səhər pik saatlarında bir sıra küçə və prospektlərdə müşahidə olunan nəqliyyat sıxlıqları ilə əlaqədar bəzi müntəzəm marşrut xətləri üzrə avtobuslararası intervallarda ləngimələr var.***

"Unikal" xəbər verir ki, bu barədə Bakı Şəhər İcra Hakimiyyəti başçısının tabeliyindəki Bakı Nəqliyyat Agentliyindən bildirilib.

Məlumata əsasən, 16 müntəzəm marşrut xətti üzrə 20 avtobusun hərəkət intervalından gecikmələr yaranıb.

Belə ki, Heydər Əliyev prospekti (kənar yol) şəhər istiqamətində 1, 13, 38 və M8 nömrəli müntəzəm marşrut xətləri üzrə avtobusların hərəkətində 15-20 dəqiqə interval müşahidə olunmaqdadır.

Moskva prospekti kənar yol və Tbilisi prospektinin Əbdülvahab Salamzadə küçəsi ilə kəsişməsindən şəhər istiqamətində isə 2, 7A, 13, 14, 18, 29, 37, 65, 67, 83, 119 və 199 nömrəli müntəzəm marşrut xətləri üzrə avtobusların hərəkətində 12-13 dəqiqə gecikmə yaranıb.

# II qrup üzrə qəbul imtahanı keçirilir

***7 iyul 2022-ci il tarixində Dövlət İmtahan Mərkəzi tərəfindən II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilir. Bu gün III ixtisas qrupu üzrə DT və TC altqruplarının hər ikisini seçən abituriyentlər üçün coğrafiya fənni üzrə də imtahan keçirilir.***



DİM-dən "Unikal"a bildirilib ki, imtahanlar Bakı, Naxçıvan, Gəncə, Şəmkir, Sumqayıt, Şəki, Bərdə, Göyçay, Şirvan, Salyan, Lənkəran və Xaçmazda təşkil olunur.

İmtahan saat 10:00-da başlanır. İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 09:45-də buraxılış rejimi başa çatır və bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

Kütləviliyin qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

Abituriyentlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:
- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

İmtahan keçirilən şəhər və rayonlarda 67 imtahan binası, 1177 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 67 ümumi imtahan rəhbəri, 195 imtahan rəhbəri, 1474 nəzarətçi-müəllim, 167 buraxılış rejimi əməkdaşı, 67 bina nümayəndəsi ayrılıb.

İmtahanda 15736 abituriyentin iştirakı nəzərdə tutulur. Abituriyentlərdən 14287 nəfər Azərbaycan, 1449 nəfər isə rus bölməsinin məzunudur. İmtahan verənlərin 8935 nəfəri oğlan, 6801 nəfəri isə qızdır. 13691 nəfər cari ilin orta ümumtəhsil məktəblərinin, 1792 nəfər əvvəlki illərin məzunudur. 11 nəfər ali təhsil müəssisələrinin, 242 nəfər isə orta ixtisas təhsili müəssisələrinin məzunudur. 48 abituriyent xarici ölkələrin vətəndaşıdır. Ən yaşlı abituriyent 1964-cü ildən, ən gənci isə 2007-ci ildəndir.

İmtahanda 14 nəfər fiziki məhdudiyyətli (I qrup gözdən əlil, eşitmə əngəlli və digər) abituriyent də iştirak edəcək. Bu abituriyentlərin rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında ayrıca zallar ayrılıb, gözdən əlillər üçün tapşırıqların oxunması, cavab vərəqinin doldurulması və s. işlər üçün fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli abituriyentlərin bina və zala daxil olması və rahat şəkildə hərəkəti üçün də xüsusi şərait yaradılıb.

İmtahanın gedişini işıqlandırmaq üçün regionlar da daxil 19 KİV nümayəndəsi DİM-də akkreditasiyadan keçib.

# Universitetə qəbul olmaq üçün 5 500 manat verib "dua" yazdırdı

***Sumqayıt Şəhər Məhkəməsində vətəndaşlara qarşı dələduzluq etməkdə təqsirləndirilən şəxsə hökm oxunub.***



"Unikal" "Qafqazinfo"ya istinadən xəbər verir ki, Rəvan Sadıqov (ad və soyad şərtidir) Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2, 178.2.4 və 234.1-ci maddələri ilə təqsirləndirilib.

Araşdırmalar zamanı məlum olub ki, o, əvvəlcə tanışı Samir Sarıyevin (ad və soyad şərtidir) etibarından sui-istifadə edərək sonuncunu bəxtinin bağlandığına inandırıb və 900 manat müqabilində onu bəd dualardan azad edəcəyini vəd edib. Bu səbəbdən Rəvan 2019-cu ilin oktyabr ayının əvvəllərində kirayə yaşadığı Abşeron rayonu, Masazır qəsəbəsi, Əliağa Vahid küçəsində yerləşən evdə Samirin 600 manatını ələ keçirərək ona maddi ziyan vurmaqla dələduzluq edib.

Bundan başqa, o, təkrarən etibardan sui-istitadə etmə və aldatma yolu ilə tanışı ilə cinayət ələqəsinə girərək Gimnaziya direktoru müavini vəzifəsində çalışan şəxsin müqaviləsinin müddətinin uzadılmasına köməklik edəcəklərinə, sonradan isə aralarında əldə olunmuş cinayətkar razılaşmaya əsasən onu ayrı bir məktəbə direktor vəzifəsinə təyin edilməsinə köməklik edəcəklərinə yalan vəd verməklə zərərçəkmiş şəxsin 17 550 manatını mənimsəyib.

Əslən Ağcabədidən olan 30 yaşlı Rəvan Sadıqovun ağlasığmaz dələduzluğu isə tanışı Hümbətov Vüsala (ad şərtidir) qarşı olub. Belə ki, o, tanışının etibarından sui-istifadə edərək sonuncuya onun barəsində "dua" yazmaqla Memarlıq və İnşaat Universitetində qabiliyyət imtahanından keçirəcəyini vəd edib. Rəvan özünü seyid kimi təqdim edərək Vüsaldan Abşeron rayonu Xırdalan şəhəri H.Əliyev parkının qarşısında 5 500 manat məbləğində pul alıb.

Bundan başqa, Rəvan Sadıqov istintaqa məlum olmayan mənbədən naməlum vaxtda və şəraitdə satış məqsədi olmadan qanunsuz olaraq şəxsi istehlak miqdarından artıq miqdarda iki ədəd bükümdə ümumi təmiz çəkisi 7,009 qram olan psixotrop maddəni saxlamaqda təqsirli bilinib.

Hakim Elçin Məmmədovun sədrliyi ilə keçirilən prosesdə Rəvan Sadıqov Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2, 178.2.4-cü maddələri ilə təqsirləndirilməsinə dair cinayət təqibinə Cinayət Məcəlləsinin 73-1.2-ci maddəsinə (zərərçəkmiş şəxslə barışığın əldə edilməsi, vurulmuş ziyanın ödənilməsi) əsasən xitam verilib. O, Cinayət Məcəlləsinin 234.1-ci maddəsi ilə təqsirli bilinərək 1 il 3 ay müddətinə azadlıqdan məhrum edilib.

# Əkin sahələri suvarılır, yeni subartezian quyusu qazılır



***Şamaxı və Qobustan rayonlarında 8 min hektardan artıq əkin sahəsi suvarılır.***

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Şamaxı Suvarma Sistemləri İdarəsi Şamaxı və Qobustan rayonlarının suvarılan sahələri üzrə, əkin sahələrinin su təminatını həyata keçirir. Belə ki, Şamaxıda 6870 hektar, Qobustan rayonunda isə 1147 hektar suvarılan əkin sahəsi mövcuddur ki, bu sahələri suvarmaq üçün 138 km-lik artıq torpaq kanallardan istifadə edilir. İdarə tərəfindən hər il mütəmadi olaraq torpaq məcralı kanalların lildən təmizlənməsi, o cümlədən beton üzlüyə alınması prosesi davam edir. Kanalların betonlanması isə su itkisinin qarşısını almaqla yanaşı suvarmanı da sürətləndirir. Görülən işlər Şamaxı və Qobustan rayonlarında fəaliyyət göstərən fermerlərin işini asanlaşdırır.

Şamaxıda suvarmanı mütəşəkkil təmin etmək üçün əsasən su tutarlarından istifadə olunur. Yaradılan su tutarları suvarmada böyük rola malik olmaqla yanaşı həmdə ehtiyat rolunu oynayır. Yay aylarında, quraqlıq dövründə suvarma suyuna ehtiyac olduqda məhz su tutarlarından kanallara su ötürülməklə sahələrə su verilir.

Qeyd edək ki, Şamaxı Suvarma Sistemləri İdarəsi Şamaxı və Qobustan rayonlarının əkin dövriyyəsində olan 8400 hektardan artıq müxtəlif kənd təsərrüfatı bitkilərinin suvarma suyu ilə təmin olunmasına xidmət edir. Onlardan 4380 hektarı taxıl, 3500 hektarı yem bitkiləri, 490 hektarı çoxillik əkinlər, 30 hektarı bostan-tərəvəz, 50 hektarı isə həyətyanı sahələrdir.

İsmayıllıda yeni subartezian quyusu qazılır. Dilqəm Şərifov bildirib ki, İsmayıllı Suvarma Sistemləri İdarəsi tərəfindən yaşayış məntəqələrinin sel sularından mühafizəsini təşkil etmək üçün bir sıra tədbirlər görülür. Hazırda rayon ərazisindən axan Sirsak çayda məcra təmizləmə işləri aparılır. Görülən işlərin məqsədi may ayında yağan yağışlarla bağlıdır. Belə ki, güclü yağış nəticəsində gələn sel suları xeyli daş-çınqıl gətirərək çay məcrasını doldurub. Çayın məcrasının təmizlənməsi nəticəsində yaxınlıqda olan Diyallı kəndi və əkin sahələri sel sularından mühafizə olunacaq. Bundan başqa idarə İsmayıllı rayonunda suvarma mövsümü ilə əlaqədar gücləndirilmiş iş rejimində çalışır. Əhalinin suvarma və içməli suya olan tələbatını ödəmək üçün rayonda 5 ədəd subartezian quyusunun qazılması nəzərdə tutulub. Hazırda onlardan biri ucqar kənd olan Vəng kəndində qazılır.

İsmayıllı rayonunda İsmayıllı Suvarma Sistemləri tərəfindən balansda olan torpaq məcralı kanalların lildən təmizlənməsi prosesi də davam edir. Buna qədər artıq beton üzlüklü kanalların təmizlənməsi yekunlaşıb. Torpaq məcralı kanallar isə 70 km məsafədə təmizlənib. Bununlada suyun axını sürətlənib, suvarma suyu su istifadəçilərinə fasiləsiz olaraq çatdırılır.

Qeyd edək ki, İsmayıllı Suvarma Sistemləri İdarəsi rayonda 9000 hektara yaxın suvarılan torpaq sahəsinə xidmət edir. Bu sahələrin suvarılması Aşıqbayramlı su anbarı, Yuxarı Şirvan kanalı, Göyçay çay, Axox çay, Cülyan çay, Talıstan çay, Əyriçay və Girdiman çay vasitəsilə həyata keçirilir.

Xızıda kollektor drenaj sistemində lil və kol-kosdan təmizləmə işləri aparılır. Dilqəm Şərifov bildirib ki, torpaq mülkiyyətçilərini vaxtında və itkisiz suvarma suyu ilə təmin etmək məqsədi ilə Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan Sumqayıt Melioservis İdarəsi ölkənin əksər rayonlarında meliorativ tədbirlər həyata keçirir. Hazırda idarə əməkdaşları Xızı rayonu ərazisində yerləşən kollektor drenaj sistemində lil və kol-kosdan təmizləmə işlərini icra edir. Uzunluğu 13 km olan kollektor-drenaj şəbəkəsi xüsusi texnika vasitəsi ilə təmizlənir. Bu işlərin mütəmadi aparılması nəticəsində əkin sahələrindən qrunt sularının qısa müddətdə dənizə ötürülməsinə nail olunur. Nəticədə torpaqların münbitliyi artır və məhsuldarlıq yüksəlir.

Qeyd edək ki, son illər Xızı rayonunda Meliorasiya və Su Təsərrüfatı ASC tərəfindən görülən meliorativ tədbirlər nəticəsində 9989 hektar sahə əkin dövriyyəsinə cəlb edilib. Belə ki, əvvəllər rayonda suvarılan sahələr cəmi 2970 hektar idi. Ölkə başçısının sərəncamı əsasında Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsi çərçivəsində Xızı rayonunda da nəzərəçarpacaq işlər görülüb. Bu tədbirlərin nəticəsidir ki, bu gün rayon suvarılan sahələr 12959 hektar təşkil edir. Həm əvvəllər mövcud olan həm də əkin dövriyəsinə yeni cəlb olunan sahələrdə suvarma təminatını yaxşılaşdırmaq məqsədi ilə 327 km uzunluğunda kanallar çəkilib. Bu kanalların 102 km-i açıq, 225 km-i isə qapalı tiplidir. Kanallar üzərində 1883 ədəd hidrotexniki qurğu quraşdırılıb. Həmçinin 135 km uzunluğunda kollektor drenaj şəbəkəsi qurulub.

***Hüseyn***



# Ölümsüzlüyə qovuşan qəhrəman

***İkinci Qarabağ müharibəsində Vətənin qeyrətini hər şeydən üstün tutan, məqamında canını ona qurban edən igidlərin cərgəsində Elçin Elşən oğlu Mansurovun xüsusi yeri vardır. Bu Vətən sevdalısı Yardımlının Kürəkçi kəndində dünyaya göz açmışdı. Azərbaycanın hərb tarixinə qəhrəmanlıq salnaməsinə yazan Elçin əbədiyyətə qovuşsa da, bütöv millətin ürəyində özünə yuva qura bilibdir.***

Şərəfli bir ömür yaşamaqla bizim üçün iftixar mənbəyinə, qürur yerinə dönən Elçin Yardımlı rayonunun Kürəkçi kənd məktəbini başa vurub Heydər Əliyev adına Ali Hərbi Məktəbinə daxil olur. Vətəninə ilahi bir sevgi ilə bağlanan gənc erməni dığalardan qisas almaqdan ötrü yaxşı da öyrənir. 2003-cü ildə məktəbi taqım komandirliyi ixtisası üzrə bitirib və bir müddət Silahlı Qüvvələrin təlim mərkəzində xidmət edib. Bundan sonra sorağı Qarabağın ən müxtəlif cəbhələrdən gəlir. Belə ki, düz 13 il Tovuz, Murov, Füzuli bölgələrində doğma Azərbaycanı göz-bəbəyi kimi qoruyur. Qorxmaz kəşfiyyatçı olaraq ən çətin tapşırıqlardan üzüağ qayıdır. Həm də 2016-cı ilin şanlı Aprel döyüşlərində Vətən sevgisini yağıya yerini göstərməklə bildirir.

Kəşfiyyatçı mayor Elçin Mansurov düz 20 il Vətəninə, dövlətinə ləyaqətlə xidmət edir. Qarabağı azad görmək istəyi ilə nəfəs alır. Təmiz ürəyi, saf vicdanı, qeyrəti, xoş davranışı, yüksək əxlaqı, vətənpərvərliyi ona hörmət qazandırır. Rütbəyə, şöhrətə, ada can atmayan, sadə komandir olaraq zabitlərin, əsgərlərin sevimlisinə çevrilir. Hər an Vətənə qurban olmağa hazır durur, xidmət illəri ərzində 6 medala layiq görülür.

İkinci Qarabağ müharibəsində qələbəmizin başlanğıcını məhz mayor Elçin Mansurovun 24 nəfərlik qrupu qoyur. Döyüş başlanan anda komandir öndə olmaqla qrup düşmənin üstünə gedir. Bir neçə saatlıq gərgin vuruşmadan sonra faşist hərbiçilərini məhv etməklə 3 mühüm postu ələ keçirirlər. Və alınan müqəddəs Vətən torpağına ilk üç rəngli Azərbaycan bayrağı sancılır. Komandirin ikinci hücum zamanı isə cəmi 45 dəqiqə ərzində iki erməni qrupu darmadağın olunur, strateji əhəmiyyətli daha iki postu alıb və azad olunan mövqedə yeni Azərbaycan bayrağı dalğalanır.

Fəqət, Elçin Vətənə, torpağa məhəbbəti sayəsindən ağır sınaqlardan qələbə ilə çıxır. Döyüşdən-döyüşə bərkiyən qorxmaz igid tabeliyində olan qrupdan ayrılıb və düşmən bölmələrinin yerləşdiyi dərinliklərə təkbaşına hücum çəkir. Yenə də şücaəti dillərdə dastana dönür. Daha 22 düşmən əsgərini öldürür. Təəssüf ki, geri qayıdan zaman düşmən snayperinə tuş gəlir. Vətən müharibəsinin aktiv fazası başlanan gün - sentyabrın 27-də Füzuli ərazisində əbədiyyət adlı dünyasına qovuşur. Cənazəsi oktyabrın 11-də döyüş meydanından götürülüb, rəhbərliyin tövsiyəsinə əsasən doğma Yardımlı rayonuna deyil, Bakıdakı II Fəxri Xiyabana gətirilərək böyük izdihamın altında torpağa tapşırılır.

Qəhrəman mayor Elçin Mənsurova döyüş tapşırığına getdiyi vaxt göstərdiyi özünəməxsus rəşadətə, həmçinin hərbi qulluq vəzifəsi zaman igidlik və mərdlik nümayiş etdiyinə görə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilir. "Vətən uğrunda", "İgidliyə görə" və digər medallarla təltif olunur.

Ömür yolu Vətəninə, torpağına məhəbbət mücəssəməsinə dönən qalib Şəhidin müqəddəs ruhu indi azad yurdunda, ən uca zirvələrdə dolaşır. Xalq öz oğlunun adı ilə hər yerdə, hər zaman fəxr edir.

***Zəfər Orucoğlu, AJB üzvü***

# Boris Conson istefa verdi



***Böyük Britaniyanın baş naziri Boris Conson xalqa müraciət edəcək.***

"Unikal" xəbər verir ki, bu barədə "Sky News" məlumat yayıb. BBC-nin məlumatına görə, Boris Conson Mühafizəkarlar Partiyasının lideri vəzifəsindən istefa verəcək. Eyni zamanda, o, payıza qədər baş nazir vəzifəsində qalacaq.

Mühafizəkarlar Partiyasının liderlik yarışı bu yay keçiriləcək və partiyanın oktyabrda keçiriləcək konfransından əvvəl yeni baş nazir təyin olunacaq.

Qeyd edək ki, Conson 24 iyul 2019-cu ildən Böyük Britaniyanın 77-ci baş naziridir.

# İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Ermənistana gedib

***İranın Ali Milli Təhlükəsizlik Şurasının katibi Əli Şahmani bu gün Ermənistana səfər edib. "Unikal" xəbər verir ki, bu barədə Ermənistan Təhlükəsizlik Şurasının mətbuat xidməti məlumat yayıb.***

Qeyd olunur ki, Şahmanini "Zvartnots" beynəlxalq hava limanında Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan qarşılayıb.

İran rəsmisinin səfər zamanı baş nazir Nikol Paşinyanla danışıqlar aparacağı, eləcə də Ermənistan Təhlükəsizlik Şurasının katibi ilə məsləhətləşmələr aparacağı planlaşdırılıb.

# Rusiya Ukraynada 347 uşağı qətlə yetirib

***Ukraynada Rusiyanın genişmiqyaslı işğalı nəticəsində 347 uşağı qətlə yetirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Baş Prokurorluğunun mətbuat xidməti məlumat yayıb.

"Ukraynada Rusiya Federasiyasının genişmiqyaslı silahlı təcavüzü nəticəsində 993-dən çox uşaq xəsarət alıb. 347-dən çox uşaq həlak olub. 646 nəfər yaralanıb", - məlumatda deyilir.

*Gülayə*

# İranda çirkli hava səbəbindən məktəblər bağlandı

***İranın qərbi İraqdan əsən güclü küləklərin gətirdiyi toz qatlarının yaratdığı hava çirkliliyi ilə mübarizə aparır.***

Havanın çirklənməsi səbəbindən İsfahan vilayətinin 16 şəhərində, həmçinin Xuzistan və Yəzd əyalətlərində dövlət müəssisələri və məktəblər bağlanıb.

Xuzistanın Əhvaz şəhərinin Sağlamlıq Elmləri Universitetinin açıqlamasına görə, havanın çirklənməsi nəticəsində yaranan tənəffüs çətinliyi ilə əlaqədar xəstəxanalara 500-dən çox adam müraciət edib, onlardan 62-si müalicə olunub.

# Floridada Afrika ilbizi: Karantin elan edildi

***ABŞ-ın Florida Pasko dairəsində təhlükəli ilbizin aşkarlanması ilə əlaqədar karantin elan edib.***

Nəhəng Afrika quru ilbizi insanlarda menengitə səbəb ola bilən siçovul ağciyər qurdunun daşıyıcısıdır. İlbizlər ilk dəfə 1969-cu ildə aşkar edilib, 1975-ci ilə qədər isə məhv edilib. 2011-ci ildə elm adamları yenidən zərərvericilərlə qarşılaşıblar, lakin onları tamamilə məhv etmək mümkün olmayıb.

# "Ukrayna dünya xəritəsindən silinə bilər" - Amerikalı polkovnik

***Münaqişə tərəfləri yaxın vaxtlarda razılığa gəlməsələr, Ukrayna dünya xəritəsindən silinə bilər.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu ABŞ müdafiə nazirinin keçmiş müşaviri, ehtiyatda olan polkovnik Duqlas Makqreqor deyib.



Onun fikrincə, Qərb ölkələri vəziyyətin sülh yolu ilə nizamlanmasına sadiq olduqlarını əməlləri ilə sübut etməlidirlər, əks halda Ukrayna daha çox insan tələfatının və dağıntıların qarşısını ala bilməz.

"Bu, əslində uğursuz dövlətdir, onu dünya xəritəsindən tamamilə silmək olar. Düşünürəm ki, atəşkəs lazımdır. Vaşinqtonda heç kim bunu etmək niyyətində deyil. Mən Berlində, Parisdə və Londonda insanlardan bu ideyaya - atəşkəs və bir növ razılaşmaya təkid etmək üçün artan dəstəyin olduğunu eşidirəm".

*Gülayə Mecid*

# Pakistanda sel nəticəsində ölənlərin sayı 32-yə çatıb

***Pakistanın müxtəlif əyalətlərində dünəndən bəri davam edən leysan yağışları nəticəsində həyatını itirənlərin sayı 32-yə yüksəlib.***

"Unikal" xəbər verir ki, leysan yağışlar Pakistanın Bəlucistan, Pəncab və Hayber Paxtunxva əyalətlərində və Gilgit-Baltistan bölgəsində həyata mənfi təsir edib.

Bəlucistanın Ketta şəhərində davam edən yağışların yaratdığı fəlakətlər nəticəsində 20 nəfər həyatını itirib. Kettanın müxtəlif yerlərində onlarla ev dağıdılıb, yüzlərlə ev və biznesə ziyan deyib.

Gilgit-Baltistan bölgəsində güclü yağışın yaratdığı sel və torpaq sürüşməsi nəticəsində 4 qadın həyatını itirib. Rayonda 200 ev sel və sürüşmə nəticəsində dağılıb.

Pəncab əyalətinin Ravalpindi və Qucranvala şəhərlərində yağıntılar nəticəsində baş verən qəzalarda isə daha 8 nəfər ölüb.



# Litva Türkiyənin bağışladığı "Bayraktar"ı Ukraynaya göndərdi

***Litva Türkiyənin bağışladığı "Bayraktar" pilotsuz uçuş aparatını Ukraynaya göndərib.***

Bu barədə məlumatı Litvanın müdafiə naziri Arvidas Anusauskas açıqlayıb.

Onun sözlərinə görə, Litva Müdafiə Nazirliyi bununla bağlı bütün hüquqi məsələləri həll edib.

Xatırladaq ki, mayın 25-i Litvada Ukraynaya "Bayraktar" alınması ilə bağlı kampaniya başladılıb və 5 milyon avro vəsait toplanılıb. Bunun ardınca Litva müdafiə nazirinin müavini



Vilyus Semeşka sözügedən məsələ ilə bağlı Türkiyəyə səfər edib və "Baykar" şirkətinin rəsmiləri ilə görüşüb. Kampaniya barədə məlumat alan "Baykar" şirkəti ölkəyə "Bayraktar"ı ödənişsiz olaraq verəcəyini bildirib. Şirkət, həmçinin "Bayraktar" alınması üçün toplanan vəsaitin humanitar yardım olaraq Ukraynaya göndərilməsini istəyib.

Bununla yanaşı, iyunun 27-si "Baykar" şirkəti Ukrayna xalqına 3 ədəd "Bayraktar TB2" hədiyyə edəcəyini də açıqlayıb.

# Kanadada hərbçilərə tatu və pirsinq etdirməyə icazə veriləcək

***Kanadanın Müdafiə Nazirliyi hərbi qulluqçuların xarici görünüşü ilə bağlı nizamnaməyə dəyişiklik edəcək. Belə ki, bu ilin sentyabrından onlara istənilən saç düzümü, pirsinq və manikür etməyə icazə veriləcək.***

Qeyd olunur ki, sentyabr ayından etibarən həm hərbi xidmətə çağırılanlar, həm də veteranlar istənilən uzunluqda saç saxlaya və onu istənilən rəngə boyaya bilərlər. Əsas tələb səliqəli görünüşdür. Həmçinin Kanada hərbçiləri üz tatuları edə biləcəklər, lakin irqçilik, cinsiyyətçilik, homofobiya və dini dözümsüzlüyü təbliğ etməməlidirlər.

Bundan əlavə, hərbçilərə uzun dırnaqlar, üzüklər, qulaq pirsinqləri, o cümlədən tunel sırğaları taxmağa icazə veriləcək. Həmçinin Kanada hərbçilərinə kürək çantalarını bir çiyinə - sol çiyinə taxmağa icazə veriləcək ki, sağ əllə salam vermək mümkün olsun. Eyni zamanda kişilərə ətək geyinmək icazəsi də veriləcək.

# Bayden Əfqanıstanı əsas müttəfiq statusundan çıxarır

***ABŞ Prezidenti Cozef Bayden Konqresə Əfqanıstanı NATO üzvü olmayan əsas müttəfiq statusundan məhrum etmək niyyətində olduğunu bəyan edib. Müvafiq bəyanatı Ağ Evin mətbuat xidməti yayıb.***

Belə ki, C. Bayden Əfqanıstanın NATO xaricindəki əsas müttəfiqlər sırasına daxil edilməsini ləğv etmək niyyətindədir.

ABŞ və NATO-dakı müttəfiqləri 2001-ci il sentyabrın 11-də törədilən terrordan sonra həmin il oktyabrın 7-də Əfqanıstana daxil olub.

22 il ərzində Əfqanıstanda hərbi əməliyyatlar üçün 2 trilyon dollardan artıq maliyyə vəsaiti xərclənib. Bu müddət ərzində ABŞ-ın 2 442 hərbçisi ölüb, 20 666-sı yaralanıb, NATO isə 1 144 hərbçisini itirib.



# "Bavariya" De Liqtə bu məbləğdə maaş təklif etdi

***"Bavariya" "Yuventus"un futbolçusu Matteyis de Liqt ilə danışıqlar aparır.***



Qol.az xəbər verir ki, bu barədə Almaniya mətbuatı məlumat yayıb. Tərəflər şəxsi müqavilənin şərtlərini müzakirə edirlər. Bildirilir ki, Münhen təmsilçisi 22 yaşlı müdafiəçiyə illik 12 milyon avro maaş təklif edib.

"Yuventus" futbolçunu 90-100 milyon avroya satmaq istəyir. "Bavariya isə 75 milyon avro + bonus ödəməyə hazırdır.

Xatırladaq ki, De Liqt 2019-cu ilin yayında "Ayaks"dan "Yuventus"a 75 milyon avro qarşılığında transfer olunub. O, geridə qalan mövsüm "Yuventus"un heyətində bütün turnirlərdə 42 oyunda 3 qol vurub və 1 qolun ötürməsini verib. Niderlandlı futbolçunun "Yuventus"la müqaviləsi 2024-cü ilin yayına qədərdir.

# "Qarabağ"ın estetik oyunu yüksək səviyyədə idi" - Polşalı məşqçi

***"Azərbaycan komandasının estetik oyunu yüksək səviyyədə idi. Amma bu, "Lex"in cərimə meydançasına kimi oldu".***

Bu sözləri polşalı futbol mütəxəssisi Boquslav Kaçmarek ölkəsinin "Polsatsport" nəşrinə müsahibəsində deyib. O, Çempionlar Liqasının birinci təfnifat mərhələsinin "Lex" - "Qarabağ" matçını (1:0) şərh edib.

Polşada bir çox klubu çalışdırmış 72 yaşlı məşqçi Ağdam komandasının oyunu barədə müsbət fikirlər səsləndirib:

"Rəqibin topla və müdafiədəki etibarlı oyununu qeyd edə bilərəm. Matçın çox hissəsində biz topa çox nəzarət edə bilmədik. Hətta top özümüzdə olandə belə. "Lex" tez-tez itkilərə yol verirdi. Nəticə yaxşıdır. Amma mən Bakı səfərindən əvvəl yüksək nikbinlikdən qaçmağın tərəfdarıyam. İstənilən halda, ilk matçda çox yaxşı oynamamasına baxmayaraq, "Lex"in üstünlüyü var. Komanda qalib gəlib və bu, təsadüfi deyil".

Xatırladaq ki, "Qarabağ" - "Lex" cabab oyunu iyulun 12-də Bakıdakı Tofiq Bəhramov adına Respublika stadionunda keçiriləcək.



# "Mançester Yunayted" Ronaldonun gedəcəyi ilə barışıb

***"Mançester Yunayted" futbolçusu Kriştiano Ronaldonun bu yay klubu tərk etməsi ehtimalı ilə barışıb.***



Qol.az xəbər verir ki, bu barədə "The Sun" məlumat yayıb. "Mançester Yunayted" rəhbərliyi 37 yaşlı hücumçunu onun iradəsi olmadan klubda saxlaya bilməyəcəklərini anlayıb. Premyer Liqa təmsilçisi uzun sürəcək bir münaqişədən yayınmaq istəyir. "Mançester Yunayted"in baş məşqçisi Erik ten Haq klub rəhbərliyi ilə danışdıqdan sonra anlayıb ki, komandanın gələcəyini Ronaldosuz planlaşdırmalı olacaq.

Daha əvvəl bildirilmişdi ki, Ronaldo iyulun 4-də komanda ilə məşqlərə qoşulmalı idi. Lakin portuqaliyalı forvard 3 gündür ki, "Manester Yunayted"in hazırlıq prosesinə qatılmır. Bu, onun ailə vəziyyəti ilə əlaqələndirilir. Futolçu formasını qorumaq üçün Portuqaliyadakı təlim-məşq bazasında məşqlərini təkbaşına davam etdirir.

Qeyd edək ki, Ronaldo 2021-ci ildən "Mançester Yunayted"də çıxış edir. Onun klubla müqaviləsi 2023-cü ilə qədərdir.

# Regekampf onu "Neftçi"yə necə gətirdiyini açıqladı

***"Solomon təlim-məşq toplanışında bizimlədir. O, çox yaxşı futbolçudur".***




Apasport.az saytının məlumatına görə, bunu "Neftçi"nin baş məşqçisi Laurentsiu Regekampf yeni transfer Solomon Kvirkveliya haqda danışarkən deyib.

Rumıniya mətbuatına açıqlama verən 47 yaşlı mütəxəssis Kvirkveliya uğrunda mübarizədə sabiq klubu "Styaua"ya qalib gəlmələrinə də aydınlıq gətirib. Regekampf rumınların Gürcüstan millisinin mərkəz müdafiəçisi ilə maraqlanmasından xəbərsiz olduğunu söyləyib: "Styaua"nın və ya Rumıniyadan başqa bir klubun onu istədiyini bilmirdim. Çünki Kvirkveliyanın ucuz oyunçu olduğunu düşünmürəm. Mən Rumıniyada olanda "Styaua"nın prezidenti Gigi Becalinin onun adını çəkdiyini xatırlamıram. Bu keçidin bizə neçəyə başa gəldiyini bilmirəm, çünki mənim işim deyil. Amma Solomonu Gürcüstan millisinin heyətində Bolqarıstan və Şimali Makedoniya ilə iki oyunda izləyərək bəyəndim. Bu, 196 sm-lik təbiətin gücüdür. Ümid edirəm və istəyirəm ki, bizə köməyi dəysin. Çünki beynəlxalq təcrübəsi var, son dərəcə vacib futbolçudur".

Qeyd edək ki, "Neftçi"yə Gürcüstan klubu "Qaqra"dan keçən Solomon Kvirkveliya bakılılarla 2 illik müqavilə bağlayıb.




# Polşalı məşqçi: "Qarabağ"ın futbolçuları topla danışırdılar"

***"Qarabağ"la oyunun estetikası yüksək səviyyədə idi, mübarizə "Lex"in cərimə meydanı yaxınlığında getdi".***

Apasport.az saytının məlumatına görə, bunu polşalı məşqçi Boquslav Kaçmarek Çempionlar Liqasının I təsnifat mərhələsində baş tutan "Lex" - "Qarabağ" oyunu barədə danışarkən deyib.

72 yaşlı mütəxəssis Polşa təmsilçisinin öz meydanında 1:0 hesablı qələbə qazanmasına baxmayaraq, Azərbaycan çempionunun daha baxımlı oyun ortaya qoyduğunu söyləyib: "Qarabağ"ın daha güclü müdafiə xəttinə malik olduğunu görmək olardı. Onlar topla danışırdılar və o, top da oyunboyu futbolçularını dinlədi. Bizim komandamız topa sahib olduqdan sonra onu uzun müddət özündə saxlaya bilmirdi, dərhal itirirdi. 1:0 hesabı ümidverici nəticədir, amma çox optimist olmamaq barədə xəbərdarlıq edirəm".

Polşada bir neçə klubu çalışdırmış, milli komandada da köməkçi məşqçi kimi çalışmış Kaçmarek "Lex"in yeni baş məşqçisi Con van den Bromdan ümidli danışıb: "Niderlandlı mütəxəssislər adətən hücumameyilli oyuna üstünlük verirlər. Ancaq qısa müddətdə bunu görmək çətindir. Bu, Con van den Bromun ilk görüşü idi. Amma "Lex"in yaxşı mövqe tutması və ən baxımlı oynamasa da, qalib gəlməyi bacarması təsadüf deyil".

Qeyd edək ki, bu komandalar arasında cavab oyunu iyulun 12-də Tofiq Bəhramov adına Respublika Stadionunda keçiriləcək.

# Gürcüstan çempionu "Kəpəz"də

***Premyer Liqanın debütantı "Kəpəz" gün ərzində ikinci əcnəbi transferini açıqlayıb.***




Apasport.az saytının məlumatına görə, Gəncə təmsilçisi Giorgi Kantariyadan sonra daha bir gürcüstanlı futbolçunu heyətinə qatıb.

Cinah yarımmüdafiəçisi mövqeyində çıxış edən Mate Kvirkviya elita təmsilçisi ilə 1 illik müqavilə imzalayıb. 26 yaşlı futbolçunun son klubu ölkəsində "Qaqra" olub. Mate vətənində "Dinamo" (Tbilisi) və "Torpedo" (Kutaisi) klubları ilə Gürcüstan çempionu olub. O, müxtəlif yaş qruplarının üzrə yığmalarda da çıxış edib.

Qeyd edək ki, "Kəpəz" yay fasiləsində Kvirkviyadan əvvəl Tural Axundov, Kamran İbrahimov, Zamiq Əliyev, Elvin Yunuszadə və Giorgi Kantariyanı transfer edib.